QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 034 (6234) 23 fevral 2021-ci il Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.



## Torpaqlarımızı satanlara ciddi mesaj, həm də dərs!



*İlham Əliyev: “Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır”*

*Bax 2*

## YAP İcra Katibliyində “Xilaskar İlham Əliyev” adlı kitabın videokonfrans formatında təqdimatı keçirilib




Fevralın 22-də Yeni Azərbaycan Partiyasının İcra Katibiyinin təşkilatçılığı ilə Milli Məclisin deputatı, “Azərbaycan” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Bəxtiyar Sadıqovun “Xilaskar İlham Əliyev” kitabının videokonfrans formatında təqdimatı...

*Bax 3*

## “Azərbaycan Qoşulmama Hərəkatına üzv ölkələrə əlavə 5 milyon dollar yardım edib”

*Bax 4*



Azərbaycan pandemiyaya dərhal cavab vermiş və meydana çıxan sosial-iqtisadi problemlərlə bağlı insan hüquqlarına əsaslanan yanaşma tətbiq edərək COVID-19 virusunun yayılmasının qarşısını almaq üçün səmərəli tədbirlər həyata keçirmişdir. XİN-dən SİA-ya verilən xəbərə görə, bunu Azərbaycanın Xarici İşlər naziri...

## Ukraynalı alim: Xocalı faciəsi bəşəriyyətə qarşı törədilən cinayətdir



1992-ci il fevralın 26-na keçən gecə Xocalıda baş verən dəhşətli hadisələrin ildönümü həlak olan günahsız 613 dinc azərbaycanlının xatirəsini yad etmək üçün növbəti fürsətdir. Ukraynalı alim, tarix elmləri namizədi Oleq Kupçik bu barədə AZƏRTAC-a müsahibəsində bildirib. Onun sözlərinə görə, bəşəriyyətə...

*Bax 6*

## Əli Kərimli Sevinc Osmanqızı qarşıdurması pik həddə




## Azərbaycanda media ilə bağlı yeni qanun layihəsi hazırlanır



Azərbaycanda media ilə bağlı yeni qanun layihəsi hazırlanr. Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov “Real TV”yə müsahibəsində deyib ki, “Media haqqında” yeni qanun layihəsi üzərində İşçi Qrup işini yekunlaşdırmaq üzrədir. Onun sözlərinə görə, artıq müəyyən istiqamətlər bəllidir: “Artıq “Kütləvi İnformasiya Vasitələri haqqında” qanunun...

*Bax 4*

## Xalq artisti Yalçın Rzazadə vəfat edib



*Bax 4*

## Əslində 23 Fevral nə gündür?




*Bax 8*

## Erməni jurnalist: Nikol Paşinyan babası kimi satqındır



*Bax 12*

# Torpaqlarımızı satanlara ciddi mesaj, həm də dərs!

*İlham Əliyev: "Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır"*

**Tarixi faktları saxtalaşdırmaq olmaz. Xalqımız 2003-cü ildən bu günə kimi "müxalifət" deyilən qurumun hansı məqsədlərə və kimlərə qulluq etdiklərini, ən əsası isə satqınçılıqlarını bilirdi.**

Və bu gün son 17 ildə Azərbaycan Prezidentinin öz xalqına göstərdiyi qayğı və bütün dünyanı ağuşuna alan koronavirusa qarşı mübarizədə və ən nəhayət 30 illik torpaq həsrətinə 44 gün ərzində Ali Baş Komandanımızın diplomatik siyasəti, Müzəffər ordumuzun əsgər və zabitlərinin rəşadəti ilə son qoymayı - Böyük Qələbə qazanması, "Biz birlikdə güclüyük!" şüarı ilə bütün uğurlu addımları atdığını xalqımız görür və öz Liderinə inanır. Ancaq həmişə olduğu kimi, bu gün də Prezidentimizin istər siyasi, istər iqtisadi, istərsə də xarici siyasət sahəsindəki bu uğurları isə müxalifəti təşvişə salıb.

Bütün çıxışlarında Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, bu gün erməni işğalından azad etdiyimiz torpaqlarımızın işğalçıya verilməsinin səbəbkarları AXC-Müsavat cütlüyüdür.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 14-də işğaldan azad olunmuş torpaqlarımıza - Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına növbəti tarixi səfəri zamanı bildirib ki, AXC-Müsavat cütlüyünün bu cinayətləri heç vaxt bağışlanılmayacaq və unudulmayacaq, həmçinin, cinayətkarlar cəzasını çəkəcəklər: "Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. Halbuki sovet vaxtında bu bağlantı yox idi. 1992-ci il mayın 8-də Şuşanın işğalından 10 gün keçəndən sonra Laçın rayonu işğal altına düşdü. Bu, böyük faciə idi. Hər bir rayonun itirilməsi böyük faciə idi. İnsanlar həlak olub, insanların əmlakı dağıdılıb, insanlar öz dədə-baba torpaqlarından didərgin salınıb. Eyni zamanda, Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyətimiz idi".

### "Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır!"

Dövlət başçısı onu da bildirib ki, AXC-Müsavat mənfur cütlüyünün satqınlığını unutmamalıdır: "Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada - Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

### Hər kəs etdiyi əməllərin cəzasını çəkəcək

Arzuolunmaz ssenari düzənləmək istəyənlər isə unudublar ki, nə dövlət həmin dövlətdir, nə cəmiyyət! İndi dövlət cox güclüdür, cəmiyyət isə ağı-qaradan seçə bilir. Əldə olunan nailiyyətlər sırasında təhlükəsizlik, güclü ordu, əmin-amanlıq, sabitlik, inkişaf və sosial rifah öndə gəlir. Son illər cəbhədə düşmənə verilən cavab, bir qarış olsun belə torpaq verməmək, əksinə yeni mövqelər əldə etmək məhz bu gücün real göstəricisidir. Və bu satqın, erməniyə nökərçilik edənlər anlamalıdır ki, Azərbaycanın güclü ordusu var və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə qadirdir və buna da nail oldu.

Ancaq 28 il "müxalifətdəyəm" deyən əqidəsi, məsləki satqınlıq olan AXCP sədri Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Vidadi İskəndərli, Arif Məmmədov... kimilər necə ki, iş çətinə düşən kimi, "dövlətin yanındayıq" (vəziyyət stabilləşən kimi olurlar iblislər-R.H.) deyən bu dələduzlara dövlət başçımızın : "Hər kəs bilməlidir, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir" çağırışı bu ünsürlərə ciddi mesaj, eyni zamanda, dərs olmalıdır".

**Rəfiqə HÜSEYNOVA**

## Rəsmi xronika

Prezident İlham Əliyev A.M.Cəfərlinin Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi təyin edilməsi haqqında Sərəncam imzalayıb. Trend xəbər verir ki, sərəncamla Azad Məhyəddin oğlu Cəfərli Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi təyin edilir.

***

Prezident İlham Əliyev "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

# "Arabnews": Azərbaycanın Vətən müharibəsindəki Qələbəsi Cənubi Qafqazda davamlı sülhə zəmin yaradıb

**Səudiyyə Ərəbistanının nüfuzlu "Arabnews" qəzetində türkiyəli politoloq Yaşar Yakışın Azərbaycanın Vətən müharibəsindəki Zəfəri və bu Qələbənin Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olmasında əhəmiyyətindən bəhs edən geniş analitik məqaləsi dərc edilib.**

AZƏRTAC xəbər verir ki, məqalədə Cənubi Qafqaz regionunun hələ qədim Bizans, İran və Osmanlı imperiyaları dövründən indiyədək maraqların kəsişdiyi ərazi olduğu, Sovet İttifaqının süqutu ərəfəsində ermənilərin yaranmış xaosdan istifadə edərək Azərbaycana məxsus Qarabağ bölgəsinin dağlıq hissəsini, daha sonra ətraf rayonları işğal etdiyi, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyi, BMT və digər beynəlxalq təşkilatların erməni təcavüzünü pislədiyi diqqətə çatdırılır.


Arab News Monday, February 22, 2021
ARAB NEWS
SAUDI ARABIA MIDDLE EAST WORLD BUSINESS SPORT LIFESTYLE OPINION MEDIA RESEARCH & STUDIES
EDITORIAL
LATEST NEWS / Middle-East an-Spanish military exercises held in the Red Sea
Home / What peace could mean for the South Caucasus
What peace could mean for the South Caucasus
YASAR YAKIS
February 21, 2021 20:58
1332
An Azeri soldier stands in the city of Jabrayil in October after Azeri forces regained control during fighting with Armenia over the breakaway region of Nagorno-Karabakh. (AFP/File)
Short Url https://arab.news/ztjw7
The South Caucasus is a region historically known for its instability, largely because it has stood at the intersection of the zones of influence of first Byzantium and Iran, then the Ottoman Empire and Iran, and finally between Russia, Iran and Turkey.
The last attempt to change borders in the region was made by
Opinion
Dr. Dania Koleilat Khatib
Arab Gulf states need to present a united front on Iran
Mohd Khairuddin Aman Razali
Muslim world must lead new sustainable development agenda
Zaid M. Belbagi
Traditional trade ties with MENA nations vital for post-Brexit UK
Yasar Yakis
What peace could mean for the South Caucasus
Barla Alamuddin
Putin considers slamming the door on Iran and opening a window for

Müəllif qeyd edir ki, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqların nəticəsiz qaldığı bir şəraitdə Azərbaycan xalqı torpaqlarının azad edilməsində yalnız öz Silahlı Qüvvələrinə arxalanacağını çox yaxşı başa düşdürü və ordunun gücləndirilməsi, ən müasir silahlarla təchiz edilməsinə başladı. Zabitlər müxtəlif ölkələrin, o cümlədən Türkiyənin hərbi məktəblərində təlim keçdilər və nəticədə Azərbaycanın qüdrətli ordusu formalaşdı.

Məqalədə son illər Ermənistanın hərbi təxribatlarından bəhs edilir və vurğulanır ki, ötən il sentyabrın 27-də son təxribatdan sonra Azərbaycan Ordusu cəmi 44 gün ərzində erməni silahlı qüvvələrini darmadağın edərək torpaqları azad etdi. "Ermənistan ordusu ağır məğlubiyyətə düçar oldu və Azərbaycan Silahlı Qüvvələri strateji əhəmiyyətə malik olan Şuşa şəhərini azad edərək Xankəndiyə gedən yolu açdı. Belə olan şəraitdə heç bir beynəlxalq təşkilat və dövlət Ermənistanı dəstəkləmədi, çünki müharibə onun ərazisində deyil, məhz Azərbaycanın öz torpaqlarında gedirdi", - deyə Y.Yakış yazır.

Müəllif vurğulayır ki, Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə imzalanan bəyanat, Ermənistanın baş naziri Paşinyanın məğlubiyyəti qəbul etməsi Cənubi Qafqazda qüvvələr nisbətini Azərbaycanın xeyrinə dəyişməklə yanaşı, həm də regionda davamlı sülh üçün əlverişli şərait yaradıb.

# YAP İcra Katibliyində “Xilaskar İlham Əliyev” adlı kitabın videokonfrans formatında təqdimatı keçirilib

**Fevralın 22-də Yeni Azərbaycan Partiyasının İcra Katibiyinin təşkilatçılığı ilə Milli Məclisin deputatı, “Azərbaycan” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Bəxtiyar Sadıqovun “Xilaskar İlham Əliyev” kitabının videokonfrans formatında təqdimatı keçirilib.**




Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirdi ki, xalqımızın Vətən müharibəsində Qələbəsinə həsr olunan “Xilaskar İlham Əliyev” kitabının təqdimatının keçirilməsi üçün 22 fevral tarixinin seçilməsi təsadüfi deyil. Çünki ermənilərin Dağlıq Qarabağın Azərbaycandan qopardılması, torpaqlarımızın işğalı ilə bağlı fitnəkarlıqlarına qarşı xalqımızın ayağa qalxması məhz 1988-ci ilin 22 fevralından başlayır.

Mübariz Qurbanlı qeyd etdi ki, Ulu Öndər Heydər Əliyevin başlatdığı siyasət və bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Ermənistanın hərbi təxribatı nəticəsində başlayan və 44 gün davam edən Vətən müharibəsində torpaqlarımızın azad olunmasını təmin etdi. Xalqımızın tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında cənab Prezidentin liderlik keyfiyyətlərindən irəli gələrək Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə, eyni zamanda xarici siyasətdə uğurları və xalq-iqtidar birliyi dayanır. Vətən müharibəsi dövründə Ali Baş Komandan İlham Əliyev milli maraqları ifadə edən qətiyyətli siyasət yürütməklə özündə yüksək şəxsi keyfiyyətləri, milli dəyərləri və təcrübəli idarəetmə bacarığını birləşdirən Lider olduğunu sübut etdi.





“Bu siyasət, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizə bizim şərəf tariximizdir. Bu tarixi qələmə almaq, təbliğ etmək, gənc və gələcək nəsillərə ötürmək olduqca vacibdir” - deyən Mübariz Qurbanlı bu baxımdan Milli Məclisin deputatı Bəxtiyar Sadıqovun “Xilaskar İlham Əliyev” kitabının əhəmiyyətindən söz açdı. Qeyd etdi ki, dörd fəsildən ibarət olan kitabda mühüm istiqamətlər var. Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması uğrunda diplomatik fəaliyyəti, həyata keçirdiyi ordu quruculuğu, Vətən müharibəsində ordumuzun uğurlu hərbi əməliyyatları, əsgərlərimizin qəhrəmanlıqları, torpaqlarımızın azad olunması kimi tariximizi şərəfləndirən məqamlar burada öz mükəmməl əksini tapıb. Müəllif kitabda torpaqlarımızın azadlığı uğrunda mübarizənin salnaməsini yaradıb ki, bu da həm bu gün, həm də gələcək üçün əhəmiyyətlidir və dəyərlidir.

Mübariz Qurbanlı əmin olduğunu bildirdi ki, Azərbaycanın müstəqil qalibiyyət tarixinin geniş əhatə olunduğu dəyərli mənbə kimi “Xilaskar İlham Əliyev” kitabı həm siyasi-ideoloji məzmununa, həm də ədəbi-bədii dəyərinə görə böyük oxucu marağına səbəb olacaq.

Milli Məclisin sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, professor Fəzail İbrahimli söylədi ki, “Xilaskar İlham Əliyev” kitabında xüsusi diqqət çəkən məqam qətiyyətli, hünərli, iradəli sərkərdə portretinin yaradılmasıdır. Aprel döyüşlərindən etibarən ötən müddət ərzində Azərbaycanın atdığı addımlar, dünyaya bəyan etdiyi fikirlər və digər məsələlər kitabda xronoloji ardıcıllıqla əksini tapıb. Kitabda proseslərə problem yanaşma da əksini tapıb. Elə məsələlər var ki, bu, Azərbaycan hüdudlarından kənara, dünyaya verilən mesajdır: “44 günlük müharibədən sonra Zəfər Paradı keçirildi. Orada ölkə Prezidenti cənab İlham Əliyev kürsüdə bütün dünyaya bəyan etdi ki, biz qalib gəldik, haqq işimizi yerinə yetirdik. Beynəlxalq təşkilatların görə bilmədiyi işi gördük. Azərbaycanın dövlətçilik tarixi var və biz bu tariximizi, ədaləti, haqqı bərpa etdik”.

Kitabın sonuncu yazısının fəlsəfi, rəmzi mənə daşıyan “Allahın evi - Ağdam məscidi” olduğunu deyən sədr müavini bildirdi ki, zahirən elə görünür ki, Ali Baş Komandan bu məscidə sadəcə ziyarətə gəlib: “Amma bu tarixi səfərlə bütün müsəlman dünyasına bəyan edilir ki, məscid bizim ərazimizdə yerləşir, ancaq bura bütün müsəlmanların Allah evidir. Bu Allah evinə ermənilər tərəfindən edilən təcavüz bütün müsəlman evinə törədilən təcavüzdür”.

Fəzail İbrahimli vurğuladı ki, bu kitab bizim döyüş şücaəti ənənlərimizin özümüzə qaytarılmasının tarixindən yazır, 200 ildir ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərin necə uğursuzluqla sonlandığından bəhs edir: “Kitabın ümumi qayəsində bir çağırış var: Ey Azərbaycan insanı, bil, düşün, dərk et və əməl et. 200 ildən artıq xristian ağuşuna sığınan, başımıza güllə və qumbara yağdıran, 12 aylıq təqvimin 10 ayında bizə qarşı faciə törədən düşməni məğlub etdik”.

Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, AMEA-nın müxbir üzvü Bəxtiyar Əliyev söylədi ki, kitab Azərbaycan xalqının, Azərbaycan ordusunun və müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycana yaşatdığı zəfər tarixindən bəhs edir. Cənab Prezident dəfələrlə bəyan etmişdir ki, Azərbaycanın ərazi bütövlüyü heç bir danışıqlar mövzusu deyil. Azərbaycan heç vaxt imkan verməyəcək ki, onun torpaqlarında ikinci bir erməni dövləti yaradılsın: “44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan, qəhrəman, rəşadətli Azərbaycan əsgər və zabitləri torpaqlarımızı düşmən işğalından azad etdi. Bununla Azərbaycan bütün dünyaya özünün dövlətçilik ənənələrini, güclü dövlət olduğunu, müstəqil olduğunu və müstəqil siyasət yeritdiyini, eyni zamanda ən sülhpərvər, tərəqqipərvər dövlət olduğunu göstərdi”.

Bəxtiyar Əliyev vurğuladı ki, şanlı zəfər salnaməsi də adlandıra biləcəyimiz bu əsərdə istər 2016-cı il Aprel döyüşlərini, istərsə də Vətən müharibəsinin 44 günü ərzində baş verən hadisələri günbəgün, saatbasaat özündə əks etdirirən yazılar əksini tapıb. “Xilaskar İlham Əliyev” kitabında yeni tariximizdə baş verən digər mühüm hadisələrə də peşəkarlıqla qiymət verilib və sanballı araşdırmalarla oxucuda dəqiq təsəvvür, düzgün qənaət formalaşır.

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov bildirdi ki, ərsəyə gətirilən nəşr Azərbaycan üçün tale kitablarından biridir. Əsərdə əsas istiqamət Azərbaycanın xilasına gedən yolun və 33 ildir davam edən münaqişəyə son qoyan qətiyyətli siyasətin izahıdır. Bu problemin həllində xilaskarlıq missiyasını həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti kitabda geniş şəkildə təqdim olunur.

Kitabın bu böyük tarixi hadisəni izah etmək baxımından məntiqi struktura malik olduğunu diqqətə çatdıran N.Cəfərov dedi ki, nəşrin qəhrəmanı Ali Baş Komandan İlham Əliyevdir: “Bütün məqamlarda, istər Aprel döyüşlərində, istərsə də İkinci Vətən savaşında mükəmməl bir xilaskar obrazı bu kitabda ətraflı yaradılıb. Düşünürəm ki, bu kitab yalnız müəllifin deyil, bütün xalqın əsəridir. Çünki burada xalqın tarixi zəfərə münasibəti, ruhu, əhval-ruhiyyəsi də öz əksini tapıb. Tarixin düyün nöqtələrini ifadə edən belə əsərlər təəssüf ki, tez-tez yaradılmır. Əlamətdar haldır ki, kitabda publisistik epos qüdrəti də hiss olunur”.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirdi ki, Bəxtiyar Sadıqovun “Xilaskar İlham Əliyev” kitabını oxuyanda Ulu Öndər Heydər Əliyevin “Vətən Müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün apardığı müharibədir” kəlamı xatırlanır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin vəsiyyətlərinə sədaqətlə əməl edərək onun siyasi kursuna əsaslanıb özünəməxsus cəsarət, qəhrəmanlıq və qətiyyət göstərdi. Xalqın, ordunun birliyi, şücaəti sayəsində işğal altında olan torpaqlarımızı erməni təcavüzkarlarından təmizlədi, dövlətimizin bütövlüyünü təmin etdi.

T.Rzayevin sözlərinə görə, bütün bu tarixi gerçəkliklər, ölkə başçısının dəyərli fikirləri, uğurlarımızın doğurduğu əhval-ruhiyyə, keçirdiymiz həyəcanlı anlar, qələbə sevincləri “Xilaskar İlham Əliyev” kitabının ana xəttini təşkil edir. Həm də torpaqlarımızın azad olunması uğrunda aparılan mübarizənin bir salnaməsi kimi müharibənin canlı mənzərəsini özündə əks etdirir: “Bəxtiyar Sadıqov jurnalist istedadı ilə Prezidentin simasında vətənpərvərliyi, sədaqəti, bəşəri dəyərləri, vətən eşqini, qələbə əzmini ustalıqla canlandırmağa müvəffəq olub və əsl Ali Baş Komandan, torpaqlarımızı işğaldan xilas edən, xalqı müqəddəs istəyinə qovuşduran, ədalətsiz dünyaya ədalət dərsi keçən, əsrlərlə sağalmayan yaralarımıza məlhəm qoyan yenilməz bir xilaskar obrazı yaradıb”.

YAP Xətai rayon əşkilatının sədri, professor Hüseynbala Mirələmov bildirdi ki, Vətən müharibəsində qazanılan qələbə nəticəsində İlham Əliyevin müəllifliyi ilə müasir Azərbaycan tarixinin yeni şərəf və qəhrəmanlıq salnaməsi yazıldı. Bu zəfər nəticəsində yaranan yeni reallıq həm də qələm sahibləri qarşısında qələbimizin işıqlandırılması, təbliği və tarixi aspektlərinin gələcək nəsillərə çatdırılması baxımından yeni vəzifələr qoyur. Bəxtiyar Sadıqovun “Xilaskar İlham Əliyev” kitabı həm bu qələbəyə aparan yolun, həm də 44 günlük müharibədə xalqımızın zəfərinin ilk salnaməsidir, Vətən müharibəsinin tarixidir. Cənab İlham Əliyevin bizi böyük Zəfərə yetirmiş siyasətinin yığcam tarixi-sənədli ifadəsidir.

Hüseynbala Mirələmovun sözlərinə görə, Birinci Qarabağ savaşının veteranı olan, məqalələri və kitabları ilə ilk müharibənin sənədli salnaməsini yaradan Bəxtiyar Sadıqovu o illərdə üzləşdiyimiz faciələr, yol verilən yanlışlar, başımıza gələnlər, itkilərimiz həmişə ağrıdıb və bu ağrılarını o dövrün həqiqətlərinə işıq salan yazıları ilə ovutmağa çalışıb. Onun “Qeyrət və xəyanət”, “İnsan və zaman”, “Həqiqət və yalan”, “Ömrün söz yadigarı” kitablarının da əsas mövzusu Qarabağ münaqişəsidir, vətənpərvərlik mövzusudur: “Belə kitablar yazmaq hər bir qələm sahibinin borcudur. Bu, keçmişi unutmamaq, onu gələcək nəsillər üçün sənədləşdirmək, xalqın ən böyük qələbələrinin müəllifi olan böyük şəxsiyyətlərimizin haqqını yaşatmaq və Qarabağımıza sahib çıxmaq borcudur”.

YAP Gənclər Birliyinin fəali Günay Vəlizadə “Xilaskar İlham Əliyev” kitabını 44 günlük vətən müharibəsinin tarixi salnaməsi kimi qiymətləndirdi və gələcəyin tarixçilərinə, oxucularına 2020-ci ilin zəfər tarixini öyrənmək üçün dəyərli bir mənbə olacağını söylədi: “Bizim canlı şahidi olduğumuzu tarixi hadisələri gələcək nəsillər məhz bu kitabdan oxuyacaqlar. Azərbaycanın zəfər tarixini özündə əks etdirən bu nəşr 4 fəsildən ibarət olmaqla xronoloji ardıcıllıqlara bölünüb. Kitabda Aprel döyüşlərindən başlayaraq zəfər günümüzə qədər olan mərhələ, başda Ali Baş Komandan İlham Əliyev olmaqla Şanlı Ordumuzun müharibəyə fiziki və psixoloji cəhətdən hazırlığı öz əksini tapıb”.

“Xilaskar İlham Əliyev” kitabının müəllifi Milli Məclisin deputatı, “Azərbaycan” qəzetinin baş redaktoru, əməkdar jurnalist Bəxtiyar SADIQOV qeyd etdi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsində düşməni diz çökdürdü, torpaqlarımızı işğalçılardan təmizlədi və tarixi ədaləti bərpa etdi. Bu savaşda İlham Əliyev “dəmir yumruğu” ilə düşmənin başını əzib, belini qırdı! Bununla da müasir Azərbaycan tarixinin şanlı zəfər salnaməsi yazıldı. 200 illik tarixi olan münaqişənin həlli nəticəsində qalib xalq və məğlubedilməz dövlət kimi özümüzü yenidən təsdiq etdik.

Bəxtiyar Sadıqov vurğuladı ki, Prezident İlham Əliyev 17 illik rəhbərliyi dövründə xalqımızı 44 günlük zəfərə addım-addım yaxınlaşdırdı: “Tarixinin ən güclü Azərbaycanını yaratdı, bütün xalqımızı bu amal ətrafında birləşdirdi. Ən müasir silahlarla, hərbi texnikalarla təchiz edilmiş qüdrətli ordu formalaşdırdı. Cənab İlham Əliyev Azərbaycan-Türkiyə qardaşlığını ən uca mərhələyə yüksəltdi”.

Birinci Qarabağ müharibəsinin iştirakçısı olan müəllif vurğuladı ki, əgər 1990-cı illərin əvvəlində AXC-Müsavat cütlüyü səriştəsizliyi, təcrübəsizliyi üzündən Azərbaycanı məğlub dövlətə çevirmişdisə, cənab İlham Əliyev Azərbaycanı qalib dövlət etdi, qürurumuzu özümüzə qaytardı, bizi böyük zəfərə çatdırdı: “Bu gün fəxr edirik ki, qalib millətik və İlham Əliyev kimi Ali Baş Komandanımız var. Cənab İlham Əlyev 44 günlük savaşda tək Ali Baş Komandan kimi fəaliyyət göstərmədi. Həm də sonadək diplomatiya cəbhəsində, informasiya müharibəsində savaşdı. Azərbaycana qarşı yönələn təzyiqlərin hamısını neytrallaşdırdı. Prezidentimiz dəmir yumruğu ilə düşməni yerlə-yeksan etdi”.

“Xilaskar İlham Əliyev” kitabını həm də dədə-baba yurdu işğaldan azad olunan bir qarabağlı kimi Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq hissi ilə qələmə aldığını söyləyən müəllif qeyd etdi ki, nəşr indiki və gələcək nəsillər üçün zəfər salnaməmizi, yeni tariximizi əks etdirir.

Təqdimata yekun vuran Mübariz Qurbanlı dedi ki, bugünkü tədbiri həm də nəsillərin görüşü adlandırmaq olar. Çünki burada həm keşməkeşli tariximizin birbaşa iştirakçısı, şahidi olmuş insanlar, həm də bu hadisələri kitablardan oxuyan gənclər iştirak edir. Gələcək nəsillər bu kitab vasitəsilə Zəfər tariximizi daha yaxından, ən əsası isə daha doğru formada öyrənəcək, özlərində düzgün yanaşma formalaşdıracaqlar.

# "Azərbaycan Qoşulmama Hərəkatına üzv ölkələrə əlavə 5 milyon dollar yardım edib"



**Azərbaycan pandemiyaya dərhal cavab vermiş və meydana çıxan sosial-iqtisadi problemlərlə bağlı insan hüquqlarına əsaslanan yanaşma tətbiq edərək COVID-19 virusunun yayılmasının qarşısını almaq üçün səmərəli tədbirlər həyata keçirmişdir. XİN-dən SİA-ya verilən xəbərə görə, bunu Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun BMT İnsan Hüquqları Şurasının 46-cı sessiyasının Yüksək Səviyyəli Seqmentində çıxışı zamanı deyib.**

Nazir bildirib ki, Azərbaycan öz səylərini ölkədaxili nailiyyətlərlə məhdudlaşdırmamışdır: "Qlobal səyləri dəstəkləmək məqsədilə Azərbaycan Hökuməti Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon ABŞ dolları, habelə, Qoşulmamama Hərəkatının virusdan daha çox əziyyət çəkmiş üzv ölkələrinə Hərəkatın sədri qismində əlavə 5 milyon dollar məbləğində yardım etmişdir. Azərbaycan həmçinin 30-dan çox ölkəyə ikitərəfli əsasda təcili humanitar yardım göstərmişdir".

C.Bayramov əlavəı edib ki, Qoşulmama Hərəkatının hazırkı sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının dekabrın 3-4-də COVİD-19 mövzusunda çağırılmış xüsusi sessiyası birlik, çoxtərəfli əməkdaşlıq, həmrəylik və insan hüquqlarına hörmətə əsaslanan əlaqələndirilmiş qlobal cavab verilməsi zərurətini bir daha təsdiq etmişdir: "İndi beynəlxalq ictimaiyyət nəinki davam edən sağlamlıq böhranına cavab verməklə, habelə ədalətli və davamlı gələcək qurmaq üçün birgə fəaliyyət göstərməlidir. Bununla əlaqədar, Azərbaycan Respublikasının Prezidenti COVID-19 virusuna qarşı peyvəndin inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında qeyri-bərabər və ədalətsiz bölgüsü ilə bağlı ciddi narahatlığını ifadə etmişdir. Fürsətdən istifadə edərək bütün dövlətləri, beynəlxalq təşkilatları, beynəlxalq donor ictimaiyyətini, peyvənd istehsalçılarını və digər aidiyyəti tərəfləri bütün ölkələri COVID-19-a qarşı peyvəndlə əlçatan, maneəsiz, vaxtında və ədalətli formada təmin etməyə çağırırıq".

C.Bayramov qeyd edib ki, demokratiyanın möhkəmləndirilməsi və insan hüquqlarının müdafiəsi Azərbaycan Respublikasının əsas prioritetləri sırasındadır: "Ölkədə davam edən islahatlar siyasi partiyalarla əsası qoyulmuş dialoq, mətbuatın inkişafına dəstək, əlilliyi olan şəxslər üçün daha yaxşı şəraitin yaradılması, qadınların və gənclərin təşviq olunması, şəffaf və səmərəli ictimai xidmətlərin miqyasının artırılması kimi geniş sahələri əhatə edir.

Azərbaycan BMT-nin insan hüquqları mexanizmləri ilə səmərəli əməkdaşlıq edir. İnsan Hüquqları üzrə Ali Komissarın Ofisinin mühüm işini dəstəkləmək məqsədilə Azərbaycan mütəmadi qaydada Ofisə könüllü maliyyə töhfələri ayırır və bunu etməkdə davam edəcəkdir. Biz üzv dövlətlərlə əməkdaşlıq və dialoq vasitəsilə insan hüquqlarının təşviqində İnsan Hüquqları Şurasının xüsusi mandat daşıyıcılarının mühüm rolunu yüksək qiymətləndiririk. Bu baxımdan ölkəmiz bütün mandat daşıyıcılara daimi dəvət ünvanlamışdır".



## Xalq artisti Yalçın Rzazadə vəfat edib

Xalq artisti Yalçın Rzazadə vəfat edib. Musavat.com xəbər verir ki, bu barədə sənətçinin oğlu məlumat verib. O, bildirib ki, uzun müddətdir xəstəlikdən əziyyət çəkən sənətçi bu gün axşam saatlarında 75 yaşında həyata gözlərini yumub. Qeyd edək ki, Y.Rzazadə xəstəliyi haqda danışarkən mədəsində yaralar əmələ gəldiyini açıqlamışdı.

## Azərbaycanda media ilə bağlı yeni qanun layihəsi hazırlanır



Azərbaycanda media ilə bağlı yeni qanun layihəsi hazırlanır. Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov "Real TV"yə müsahibəsində deyib ki, "Media haqqında" yeni qanun layihəsi üzərində İşçi Qrup işini yekunlaşdırmaq üzrədir. Onun sözlərinə görə, artıq müəyyən istiqamətlər bəllidir: "Artıq "Kütləvi İnformasiya Vasitələri haqqında" qanunun qüvvədən düşməsi və Azərbaycanda yeni "Media haqqında" qanunun qəbul edilməsi prosesindəyik".

## Vazgen Manukyana cinayət işi açıldı



Ermənistan polisində "Vətənin qurtuluşu hərəkatı"nın lideri, müxalifətin baş nazir vəzifəsinə namizədi Vazgen Manukyana qarşı cinayət işi açılıb. "İki sahil" erməni mediasına istinadən xəbər verir ki, bu barədə Ermənistan Baş prokurorunun müşaviri Qor Abrahamyan bildirib. Onun sözlərinə görə, cinayət işi Manukyanın müxalifətin 20 fevral tarixindəki mitinqdə verdiyi bəyanatlarla əlaqədardır. Abrahamyan Cinayət Məcəlləsinin 301-ci maddəsi (hakimiyyəti zorla ələ keçirməyə, ərazi bütövlüyünü pozma və ya Ermənistanın konstitusiya quruluşunu zorla dəyişdirmək çağırışları) maddəsi ilə iş açıldığını deyib.

## Ermənistan iqtisadiyyatı 8 faizə yaxın azalıb



2020-ci ildə Ermənistanın ümumi daxili məhsulu 2019-cu illə müqayisədə 7,6 faiz azalıb. Bu barədə Ermənistan Milli Statistika Komitəsinin hesabatında deyilirQeyd olunur ki, ötən il ölkə iqtisadiyyatı yalnız 1-ci rübdə 3,9 faiz artım nümayiş etdirib. İkinci rübdə Ermənistan iqtisadiyyatı 13,7 faiz, üçüncü rübdə 9 faiz, dördüncü rübdə 8,8 faiz azalıb.

# Covid-19 pandemiyası nə zaman başa çatır? - ÜST açıqladı!




Umumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə direktoru Dr. Hans Kluq Covid-19 pandemiyasının 2022-ci ilin əvvəllərində sona çatacağını və ən pis ssenarinin geridə qaldığını söyləyib. SİA-nın xəbərinə görə, Danimarka dövlət KİV-lərinə danışan Kluq 2021-ci ildə Covid-19-un bütün dünyada təsirli olacağını, lakin 2020-ci ilə nisbətən daha təmkinli və idarəolunan olacağını vurğulayıb. Kluq qeyd edib ki, ən pis ssenari geridə qalıb və virusun ilk yayılmağa başladığı 2020-ci ilə nisbətən virus haqqında daha çox məlumat olduğunu bildirib.

Covid-19 epidemiyasında yaşanan inkişafları heç kimin əvvəlcədən bilə bilməyəcəyini vurğulayan və öz proqnozunu izah edən Kluq, "Düşünürəm ki, epidemiya 2022-ci ilin əvvəlində sona çatacaq. Virus qalmağa davam edəcək, amma məhdudiyyətlərə ehtiyac olacağını düşünmürəm. Bu nikbin bir mesajdır"- deyə vurğulayıb.

### Mutasiyalar normaldır, lakin narahatlığa səbəb olur

Covid-19 mutasiyasına da münasibət bildirən Kluq mutasiyaların normal olduğunu və virusun yoluxduğu şəxsə uyğunlaşmağa çalışdığını, lakin mutasiyaların sürətlə yayılmasının onları narahat etdiyindən danışıb.

Kluq Covid-19-un mutasiyaya uğramış, daha tez yayılan növlərinin süriti sayəsində inkişaf etdirilən peyvəndlərin effektivliyini yaxından izlədiklərini, lazım olduqda peyvəndlərin yeni mutasiyalara uyğunlaşdırılacağını və mutasiyalar üçün təməl olaraq peyvənd istehsalına ehtiyac olmadığını söyləyib. Mutasiyaların virusu nəzarətdən çıxara bilməyəcəyini vurğulayan Kluq ancaq səhiyyə sistemi təzyiq altında olan olan ölkələrdə daha da çətinlik çəkəcəklərini, bu səbəbdən mutasiyalara çox ciddi yanaşdıqlarını qeyd edib.

### Xəstə sayı 112 milyona, can itkisi isə 2,5 milyona çatıb

Ən böyük problemin peyvənd olunan şəxslərlə olunmayanların eyni mühitdə bir araya gəlməsi ilə yaşanacağını qeyd edən Kluq, zamanın çox əhəmiyyətli bir faktor olduğunu vurğulayıb. "Sürət bundan sonra ən yaxşı dostumuzdur. Hər şey tempdən asılıdır. Sürət həyatı xilas edəcək və iqtisadiyyatı qoruyacaq. Nəticədə mutasiyaları stoplayacaq" deyə bildirib. Dünyadakı koronavirus xəstələrinin sayı 112 milyonun astanasına çatarkən, epidemiya səbəbindən insan itkisi 2,5 milyon həddinə çatıb. Bu günə qədər 87 milyon insan Covid-19-a yoluxaraq sağalıb, təxminən 100 milyon insan vaksinasiya edilib.

*Aysel Məmmədova*

Covid-19

## "Xocalıya ədalət" kampaniyası çərçivəsində petisiya yayılıb

Xocalı soyqırımının tanıdılması, bu faciəni törədənlərin hüquqi müstəvidə cinayət məsuliyyətinə cəlb edilməsi və haqq səsimizin dünyaya çatdırılması məqsədi ilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüskarı olduğu "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində petisiyaya imza toplanmasına başlanılıb. Gənclər Fondundan verilən xəbərə görə, petisiya beynəlxalq təşkilatlara, beynəlxalq məhkəmələrə və müxtəlif ölkələrin Xarici İşlər Nazirliklərinə ünvanlanıb.




Petisiyada 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda Ermənistan silahlı qüvvələrinin azərbaycanlılara qarşı törətdiyi soyqırım barədə məlumat verilir, Ermənistan hakimiyyətinin törətdiyi bu cinayətə hüquqi müstəvidə qiymət verilməsi tələb olunur, Xocalı faciəsini törədən cinayətkarların məsuliyyətə cəlb edilməsi və faciənin "soyqırım aktı" kimi qiymətləndirilməsinə çağırış edilir. "Xocalıya ədalət" beynəlxalq kampaniyası tarixi ədalətin bərqərar olması, bəşəriyyətə qarşı belə cinayətlərin təkrar olunmaması naminə hər bir kəsi petisiyanı imzalamağa çağırır!

Sözügedən petisiyanı bu linkdən imzalamaq olar: http://justiceforkhojaly.org/petition

# Ermənistanda revanş haqqında düşünənlər Azərbaycanın dünyaya nümayiş etdirdiyi XXI əsrin müharibə nümunəsini unutmasınlar

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Sükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.**



2020-ci il noyabrın 8-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad edilməsi Azərbaycanın Qarabağda başladığı və 44 gün ərzində aparılan Vətən müharibəsindəki uğurlu əks-hücum əməliyyatları sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə qədim Şuşa şəhərinin rəşadətli ordumuz tərəfindən işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərərək Zəfər günü kimi tariximizə yazıldı. Bu fikirləri AZƏRTAC-a Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

## Ermənistandan və xaricdən idarə olunan 33 il əvvəlin əsassız və huquqazidd “miatsum” xülyası

Elçin Əhmədov deyib ki, Azərbaycan Ordusunun 44 gün ərzində aparılan Vətən müharibəsindəki uğurları, ərazilərimizin düşməndən azad edilməsi Ermənistanın hərbi-siyasi rəhbərliyinə bu ağır və rüsvayçı məğlubiyyətdən nəticə çıxarmağa kifayət etməyib. Son vaxtlar Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən revanşist fikirlər, atılan qeyri-qanuni addımlar, xüsusilə 33 il əvvəl - keçmiş DQMV Xalq Deputatları Sovetinin 20 fevral 1988-ci il tarixli qeyri-qanuni qərarını dəstəkləyən bəyanatı, Dağlıq Qarabağ ermənilərini tərəf kimi təqdim etmək cəhdləri bunu təsdiq edir. Bu baxımdan qondarma rejimin keçirdiyi tədbirlərin şişirdilərək ictimaiyyətə yanlış formada çatdırılması bu məqsədə xidmət edir, eləcə də beynəlxalq hüququn norma və prinsipləri ilə tamamilə ziddiyyət təşkil edir.

Məlum olduğu kimi, bütün dövrlərdə Dağlıq Qarabağa dair ərazi iddiaları kənardan, məhz Ermənismtanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılmışdır. Sovet dövründə mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kampaniyası aparılmış və nəticədə mənfi ictimai fikir formalaşdırılmışdır. Hələ ermənilərin ərazi iddiaları başlamazdan əvvəl Azərbaycan xalqının əleyhinə və erməni millətçiliyi ruhunda yazılmış Z.Balayanın Yerevanda “Sovetakan qrox” nəşriyyatında 100 min tirajla çap olunan və SSRİ məkanında geniş yayılan “Oçaq” (Yurd) kitabı Ermənistanda Dağlıq Qarabağı ələ keçirmək üçün aparılan təbliğat işini daha da gücləndirdi.

1985-ci ilin martında M.S.Qorbaçovun Sov. İKP MK Baş katibi seçilməsindən sonra Sovetlər İttifaqında yenidənqurma adı altında bir sıra dəyişikliklər baş verdi. XX əsrin 80-ci illərinin ikinci yarısında yaranmmış vəziyyətdən istifadə edərək ermənilər özlə-rinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə “böyük Ermənistan” ideyasını həyata keçirmək üçün yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər.

1987-ci il oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin I müavini Heydər Əliyev vəzifəsindən azad edildikdən bir neçə gün sonra Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə “Interkontinental” hotelində müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürdü. Onun verdiyi müsahibə noyabrın 18-də “L’Humanite” qəzetində çap olundu. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı.

1988-ci il fevralın 8-də erməni millətçiləri Xankəndində DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-in tərkibinə verilməsi tələbi ilə yeni imza toplanması kampaniyasına başladılar və ayın 12-də DQMV-də gizli fəaliyyət göstərən millətçi “Krunk”un təşkilatçılığı ilə ermənilər DQMV-nin Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndidə ilk mitinq keçirdilər. 1988-ci il fevralın 18-də M.Qorbaçovun SSRİ-də milli münasibətlər məsələsinə yenidən baxılmasının vacibliyini bildirməsi vəziyyəti daha da gərginləşdirdi.

Bu çıxışdan istifadə edən ermənilər fevralın 20-də keçmiş DQMV Xalq Deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyasında “DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsatət qaldırmaq barədə” qərar qəbul etdilər. DQMV Xalq Deputatları Sovetinin tərkibində 140 deputatdan 110-u erməni, digərləri isə azərbaycanlı idi. Azərbaycanlılar bu iclasa buraxılmamışdılar. Keçmiş DQMV Xalq Deputatları Sovetinin qərarı tamamilə qanunazidd idi.

Əvvəla, Azərbaycan SSR Konstitusiyasının 138-ci maddəsinə və DQMV haqqında Qanunun 41-ci maddəsinə görə, DQMV-nin Xalq Deputatları Soveti yerli hakimiyyət orqanı hesab olunur və öz ərazisində sosial-iqtisadi və təsərrüfat quruculuğuna rəhbərlik edə bilər, büdcəni və vilayətin xalq təsərrüfat planını təsdiq edə, dövlət qayda-qanununu və vətəndaşların hüquqlarının qorunmasını, qanunlara əməl edilməsini təmin edə bilərdi. Bundan başqa, SSRİ Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq, Xalq Deputatları Soveti öz sessiyalarında respublikada ərazi dəyişiklikləri məsələsinə baxmaq hüququna malik deyildi. Həmçinin, milli-ərazi dəyişikliyi məsələsi müttəfiq respublikanın suveren hüququ sayılırdı.

İkincisi, SSRİ Konstitusiyasından əlavə, respublikaların sərhədlərinin dəyişdirilməsi məsələsinin qoyuluşunun özü tamamilə qanunazidd idi, çünki Azərbaycan 1922-ci ildə bağlanmış İttifaq müqaviləsinə görə də, SSRİ-nin tərkibinə mövcud ərazisi və sərhədləri ilə daxil olmuşdu. SSRİ Konstitusiyasının 78-ci maddəsində isə deyilirdi ki, müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz və müttəfiq respublikalar arasında sərhədlər müvafiq respublikaların qarşılıqlı razılığı əsasında dəyişdirilə bilər ki, bu da SSRİ tərəfindən təsdiq olunmalıdır. Ümumiyyətlə, SSRİ Konstitusiyasının 81-ci maddəsinə görə, SSRİ yaradılarkən dövlətin tərkibinə daxil olan müttəfiq respublikaların suveren hüquqlarını müdafiə etmək təhəddüdünü SSRİ öz üzərinə götürmüşdü.

Üçüncüsü, sovet dövründə Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu 1936-cı və 1977-ci illər SSRİ konstitusiyalarında təsbit edilmişdi. SSRİ və Azərbaycan SSR konstitusiyalarına əsasən (SSRİ Konstitusiyasının 86-cı maddəsinin, Azərbaycan SSR Konstitusiyasının 83-84-cü maddələri) DQMV-nin hüquqi statusu DQMV Xalq Deputatları Soveti tərəfindən Azərbaycan SSR Ali Sovetinə təqdim olunmuşdu və 1981-ci il iyunun 16-da qəbul edilmiş Azərbaycan SSR-in tərkibində “Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında” qanunla tənzimlənirdi.

Beləliklə, yuxarıda deyilənlərə əsasən, belə bir nəticəyə gəlmək olar ki, DQMV Xalq Deputatları Sovetinin vilayətin Azərbaycan SSR tərkibindən çıxması və Ermənistan SSR tərkibinə daxil edilməsi haqqındakı qərarı hüquqazidd və Konstitusiya əleyhinə bir qərar idi. Respublikaların sərhədlərinin dəyişdirilməsi cəhdləri Konstitusiyaya zidd olduğundan, buna heç cür haqq qazandırıla bilməzdi və bu Azərbaycan SSR-in dövlət suverenliyinin pozulması demək idi.

1988-ci il fevralın 22-də DQMV Xalq Deputatları Sovetinin Azərbaycandan ayrılma barədə qərarına (1988-ci il 20 fevral) etiraz edən dinc azərbaycanlılara Xankəndi-Ağdam şose yolu üstündə yerləşən Əsgəran qəsəbəsi yaxınlığında erməni silahlıları atəş açdılar. Nəticədə, Əli və Bəxtiyar adlı iki azərbaycanlı gənc münaqişənin ilk qurbanları kimi həlak oldular.

## Azərbaycanın tarixi Qələbəsini şərtləndirən Vətən müharibəsindəki hərbi-diplomatik uğurları

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, xalqımız bütünlüklə dövlətimizin başçısının ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də işğal altında olan şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.

Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirirdi. Vətən müharibəsinin 44 günü ərzində dövlətimiz, beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərini, 17-də Füzuli şəhərini, 22-də Zəngilan şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi. Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilməlidir.

*Ardı Səh. 6*

# Ermənistanda revanş haqqında düşünənlər Azərbaycanın dünyaya nümayiş etdirdiyi XXI əsrin müharibə nümunəsini unutmasınlar

Əvvəli Səh. 5

## Prezident İlham Əliyevin təcavüzkara qarşı milli maraqlara, tarixə və beynəlxalq hüquqa əsaslanan qətiyyətli mövqeyi

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmirdi. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında və həmin il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə çıxışları zamanı tutarlı faktlarla sübut etdi. 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı, eləcə də iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən Prezident İlham Əliyev Ermənistanın baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi.

Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı bəyan etdi ki, erməni xalqı öz müqəddəratını artıq təyin edib və onların erməni dövləti var: "Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!". Dövlət başçısı, həmçinin bildirdi ki, Ermənistan tərəfinə çox aydın şəkildə izah etməlidirlər ki, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ müstəqil ölkə deyil! Heç kim bu qeyri-qanuni qurumu tanımır və Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməklə bağlı beynəlxalq təzyiq daha çox Ermənistana göstərilməlidir: "Çünki BMT Təhlükəsizlik Şurasından daha yuxarı olan beynəlxalq orqan yoxdur. Onlar 4 qətnamə qəbul ediblər. Onları yoxlamaq çox asandır. Mütəxəssislərə onların nömrələri məlumdur. Onlar nə deyir: Erməni qoşunları işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Təkcə Dağlıq Qarabağ işğal edilməyib. Həmçinin onun ətrafındakı 7 rayon da işğal olunub. Ermənistan bunu gizlətmək istəyir. Bu, həmin 7 rayondur ki, ermənilər heç vaxt orada yaşamayıb".

"Qafqaz Bürosu Dağlıq Qarabağın Ermənistanın tərkib hissəsi olmasına qərar vermişdi" kimi saxta tezisini tutarlı faktlarla ifşa edən Azərbaycan Prezidenti İlham Əliyev qeyd etdi ki, Ermənistan tarixçilərinin və rəhbərliyinin iddiasına gəldikdə, əgər Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibində olsaydı, qərarda "Azərbaycan SSR-in hüdudlarında saxlanılsın" əvəzinə, "Azərbaycan SSR-ə verilsin" yazılardı. Nəticədə Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülmüş ermənilərə 1923-cü il iyulun 7-də sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə Azərbaycan tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlı status verilmiş və nəticədə bu hadisə Ermənistanın Dağlıq Qarabağa dair gələcək ərazi iddiaları üçün bir vasitə olmuşdur.

Azərbaycan Prezidenti hər zaman mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan edib. Xüsusilə son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratdı. Eyni zamanda, Azərbaycan Prezidenti hər zaman hücum diplomatiyasına və milli maraqlara əsaslanan siyasət həyata keçirərək Ermənistanın 30 ildən artıqdır ki, yürütdüyü işğalçılıq siyasəti və bunun bütün region üçün yaratdığı ciddi təhdidləri məntiqi arqumentlərlə dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Bununla yanaşı, Prezident İlham Əliyev Ermənistanın təcavüzkar siyasətini, habelə müharibə cinayətlərinin mahiyyətini açmaqla Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün konkret faktlarla təcavüzkarı ifşa etdi.

## Azərbaycan Prezidentinin Ermənistanın yalan üzərində qurulmuş "yenilməzlik" mifologiyasını dağıtması

Qeyd etmək vacibdir ki, rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirilməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasını darmadağın etdi. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Nəticədə bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin zəfər çalmasını şərtləndirdi. Xüsusilə, Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 günün ərzində reallığa çevrildi xalqımıza böyük sevinc yaşatdı.

Azərbaycan Prezidenti deyib: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq".

2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev son dəfə 39 il bundan əvvəl Ümummilli lider Heydər Əliyevin şəhərə tarixi və unudulmaz səfəri zaman gəldiyini diqqətə çatdıraraq bildirdi ki, qəhrəman Azərbaycan Ordusu mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik".

Azərbaycan Prezidenti bildirmişdir ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər. Ermənistanda revanş haqqında düşünənlər Azərbaycanın dünyaya nümayiş etdirdiyi XXI əsrin müharibə nümunəsini unutmasınlar. Dövlətimizin başçısı birmənalı olaraq bildirib ki, Azərbaycanın işi haqq işidir və Qarabağ Azərbaycandır!

# İlahə Əzizli: "Müəllim peşəsinə və şagirdlərinə olan məhəbbətini özündə birləşdirməlidir"



Lev Tolstoyun belə bir deyimi var: "Müəllim əgər işini sevirsə, o yaxşı müəllim olacaq. Müəllim işinə və şagirdlərinə olan məhəbbətini özündə birləşdirirsə, o kamil müəllim olacaq". Bu fikirləri SİA-ya "Hədəf" kurslarının riyaziyyat müəllimləsi İlahə Əzizli deyib.

Xatırladaq ki, İlahə müəllimə də həm işinə həm də şagirdlərinə olan məhəbbətini özündə birləşdirən müəllimlərdəndir. Müəllim kollektivi və şagirdləri tərəfindən dərin hörmət və sevgi qazanmış bu gənc müəllim 2010-cu ildə Neftçala rayonunun Qədimkənd kənd tam orta məktəbində ümumi orta təhsilini başa vurub. Elə məktəb illərindən dərslərində müvəffəqiyyəti, təşkilatçılıq qabiliyyəti, fənn olimpiadalarında yüksək nəticələri və digər ictimai işlərdə fəallığı ilə fərqlənib. Ali bakalavriat təhsilini 2010-2014-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat və informatika ixtisası üzrə, magistr təhsilini isə 2014-2016-cı illərdə Bakı Dövlət Universitetinin ehtimal nəzəriyyəsi və riyazi statistika ixtisası üzrə alıb. Hal-hazırda "Hədəf" şirkətlər qrupu - "Hədəf" kurslarında riyaziyyat və məntiq tədrisi üzrə fəaliyyət göstərir.

*Ceyhun Rasimoğlu*

# Lyudmila Marçenko: Xocalı qətliamı Qarabağ müharibəsi dövrünün ən faciəli anlarından biridir



1992-ci ilin 26 fevral hadisələri Azərbaycan xalqının yaddaşında təkcə sağalmaz yaralar deyil. Bu, Qarabağ müharibəsi dövrünün ən faciəli anlarından biri və amansızcasına qan tökülməsidir. Bu barədə AZƏRTAC-a müsahibəsində Ukrayna Ali Radasının deputatı Lyudmila Marçenko bildirib.

Ukraynalı parlamentarinin qeyd etdiyi kimi, 1992-ci il fevralın 26-na keçən gecə ən faciəli anlardan biri olub. Həmin gecə erməni hərbi dəstələri Azərbaycanın Xocalı şəhərinə hücum edib, nəticədə 613 dinc sakin, o cümlədən 63 uşaq və 106 qadın öldürülüb, 487 nəfər şikəst edilib; 150 nəfər itkin düşüb, əsasən yaşlı insanlardan, uşaq və qadınlardan ibarət 1275 sakin əsir götürülüb, onlara qarşı dəhşətli təhqir, işgəncə və həqarətlər tətbiq olunub, 7 mindən çox əhalisi olan şəhər dağıdılıb. Lyudmila Marçenko deyib: "Xocalı şəhərinin əhalisinə qarşı törədilən cinayətlər xarakterinə və miqyasına görə birmənalı olaraq BMT-nin Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 saylı qətnamə ilə təsdiq etdiyi "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiyasının təsiri altına düşür. Bu sənəddə soyqırımının tanınmasının hüquqi əsasları təsbit edilib".

# Ukraynalı alim: Xocalı faciəsi bəşəriyyətə qarşı törədilən cinayətdir



1992-ci il fevralın 26-na keçən gecə Xocalıda baş verən dəhşətli hadisələrin ildönümü həlak olan günahsız 613 dinc azərbaycanlının xatirəsini yad etmək üçün növbəti fürsətdir. Ukraynalı alim, tarix elmləri namizədi Oleq Kupçik bu barədə AZƏRTAC-a müsahibəsində bildirib. Onun sözlərinə görə, bəşəriyyətə qarşı cinayətlərin və hərbi cinayətlərin iddia müddəti yoxdur, təqsirkarlar tez və ya gec cəzalandırılacaqlar.

Oleq Kupçik deyib: "Bu cinayət keçmiş sovet ordusunun hərbi qulluqçuları və erməni hərbiləşdirilmiş dəstələri tərəfindən törədilib. Xocalı hadisəsi planlaşdırılmış birgə əməliyyat idi, çünki Ağdam-Şuşa və Əsgəran-Xankəndi yolunun üstündə yerləşən bu yaşayış məntəqəsi çox mühüm idi".

Ukraynalı alim qeyd edib ki, Azərbaycan rəhbərliyi tərəfindən aparılan multikulturalizm siyasəti etnoslararası yaxud millətlərarası münaqişələrin qarşısını alır və onları qeyri-mümkün edir, həmçinin bir çox millətlərin nümayəndələrinin respublikada dinc yanaşı yaşamasını təmin edir.

# İşğalçı Ermənistan minalı sahələrin xəritələrini niyə vermir?

Dövlətimizin başçısı İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni binasının istifadəyə verilməsi çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində işğaldan azad edilən torpaqlara səfərləri ilə bağlı təəssüratlarını belə ifadə etmişdir ki, əlbəttə ki, hər bir Azərbaycan vətəndaşı hansı hissləri keçirirsə, mən də o hissləri keçirirəm, bəlkə daha çox: "Çünki mən artıq əyani şəkildə o torpaqlarda olmuşam. İndi vaxtaşırı televiziya reportajlarında dağıdılmış, viran qoyulmuş o ərazilər göstərilir. Amma, əlbəttə ki, onu əyani şəkildə görəndə mənzərə tam başqadır. Bu, bir daha onu göstərir ki, biz hansı bəlayə qarşı mübarizə aparmışıq. Bu gün bizim haqlı davamıza kölgə salmaq istəyən ermənipərəst, anti-Azərbaycan, islamofob dairələr bunu bilməlidirlər ki, mənfur Ermənistan bizim torpaqlarımızı zəbt edərək, işğal edərək bütün infrastrukturu dağıdıb."



İşğal edilmiş ərazilərimizdə bir dənə də salamat bina yoxdur. Tarixi və dini abidələrimiz tamamilə dağıdılıb. Bu mənzərə bütün dünyaya təqdim edilir və təqdim edilməlidir. Bu talançılıq, bu vəhşilik, bu düşmənçilik bütün dünyanın diqqətini cəlb etməlidir. "Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik, erməni vəhşiliyini məhv etmişik" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, buna görə şanlı Qələbəmiz bölgə, dünya üçün çox böyük əhəmiyyət daşıyır. Ermənilər elə düşünürdülər ki, bütün evlər yerlə-yeksan edilərsə, azərbaycanlılar o torpaqlara qayıtmayacaqlar. Çünki onların ağlına belə gəlməzdi ki, Azərbaycan güclənib, qüdrətlənib, 44 gündə işğala son qoyacaq, ədaləti bərpa edəcək. Bu, ermənilərin və onlara havadarlıq edənlərin yanlış düşüncələri idi. Torpaqlarımızın nə zamansa öz sahibinə qayıdacağı heç kimdə şübhə doğurmurdu. Cənab İlham Əliyevin bəyan etdiyi kimi, biz nəyi nə zaman edəcəyimizi yaxşı bilirdik. Azərbaycan gücləndi, qüdrətləndi, münaqişənin həlli üçün möhkəm hüquqi baza formalaşdı. İnformasiya mübarizəsində Qələbəmiz döyüş meydanında Zəfərimizə yol açdı.

"Biz bütün işləri ardıcıllıqla edirik və mən bu ardıcıllıq haqqında dəfələrlə demişəm Azərbaycan xalqına hansı işləri biz görəcəyik ki, insanlar da bilsinlər" söyləyən cənab İlham Əliyev vurğulayır ki, birinci, minalardan təmizləmə işidir. Bu böyük bir prosesdir. Ermənilər mina sahələrinin xəritələrini vermirlər. Minatəmizləmə Agentliyi yenidən formalaşdırılır. Mina təmizləmə işləri başa çatdırıldıqdan sonra ziyanın qiymətləndirilməsi həyata keçiriləcək.

Bugunümüzün əsas tələblərindən, çağırışlarından biri dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların bu məsələyə laqeyd yanaşmamalarıdır. 10 noyabr üçtərəfli razılaşmasının müddəalarını yerinə yetirmək üçün sanki xahiş-minnət gözləyən Ermənistan 44 günlük müharibənin verdiyi dərsi unutmamalıdır. Azərbaycanın yaratdığı yeni reallıqlar bugünədək susmağa üstünlük verən dövlətləri də ciddi düşündürməli, belə qeyri-ciddi yanaşmaların sonda hansı nəticəyə gətirib çıxardığını nəzərdən keçirməlidirlər. Təbii ki, 30 ilə yaxın müddətdə Ermənistana "dur!" deyib, törətdiyi cinayət əməllərinə, beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrinə məhəl qoymaq üçün təzyiqlər göstərilsəydi, münaqişə sülh yolu ilə öz həllini tapardı. Amma dünya gördü ki, Azərbaycan hansı imkanlara malikdir. Hərb variantını səbəbsiz yerə istisna etmirdi. Şəhidlərimizin qanı hesabına yazılan Zəfərimiz bir çox məqamların, o cümlədən dünyanın ikili siyasətinin yaratdığı problemlərin açıqlamasında yardımçı oldu. Bu gün həmin dövlətlər, təşkilatlar yenidən seyrçi mövqedə dayanıb Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minaların təmizlənməsi, Böyük Qayıdışın tezliklə həyata keçirilməsi üçün niyə bu məsələyə laqeyd yanaşırlar? Maraqlıdır, 10 noyabr üçtərəfli razılaşmasından sonra "fəallaşan" ATƏT-in Minsk qrupu niyə Ermənistanı sülh razılaşmasından irəli gələn addımları atmağa məcbur etmir? Bir müddət öncə yaydıqları bəyanatda vasitəçilik missiyalarını davam etdirmək, regionda sabitliyin, təhlükəsizliyin təminatına dəstək vermək istədiklərini bildirirdilər. Söhbət minalanmış ərazilərlə bağlı xəritənin Azərbaycana verilməsindən gedirsə, vasitəçilərin susması onların mandatına ziddir.

Dövlətimizin başçısı İlham Əliyevin bütün çıxışlarında bu fikir xüsusi qeyd edilir ki, ərazilərin minalardan təmizlənməsi olduqca önəmli məsələdir. Ermənilər işğal etdikləri bütün əraziləri minalayıblar. Bu baxımdan həmin xəritələr verilməlidir. Dağıdılmış ərazilərin bərpası, yeni yolların çəkilməsi istiqamətində addımlar atılır. "Böyük Qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik." Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev dəfələrlə Azərbaycan xalqına müraciətlərində bu məqama da diqqət yönəldirdi ki, düşmənə yumruq göstərmişdim: "Demişdim ki, bu yumruq elə belə yumruq deyil... Bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam."

2021-ci il məhz tariximizdə Böyük Qayıdışın reallaşdığı il kimi xarakterizə ediləcək. "Artıq mən qaçqın deyiləm" söyləyən soydaşlarımız torpaqlarımız işğaldan azad edildiyi gündən öz doğma-yurd yuvalarına qayıtmağa tələsir və o günü səbirsizliklə gözləyirlər. Hətta həmin ərazilərə gedib, evlərini, uşaqlıq illərini xatırlamaq üçün hər bir kəndi, məhləni qarış-qarış gəzmək istəyini gerçəkləşdirənlər də var. Bu isə bədbəxt hadisələrin baş verməsi ilə nəticələnir. Qeyd etdiyimiz kimi, mənfur düşmən işğaldan sonra nəinki bütün evləri, infrastrukturu, bütün tarixi abidələrimizi dağıdıb, eyni zamanda, hər tərəfi minalayıb. Təkcə təmas xəttinə yaxın olan əraziləri yox, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri minalayıb. Quruculuq və bərpa işlərindən öncə bu ərazilərin minalardan təmizlənməsi əsasdır, ilkin mərhələdir. Bu ərazilərdə işlərə başlanılan sahələr minalardan təmizlənib. Təhlükəsizliyi təmin etmədən bərpa işlərinə başlanılması qeyri-mümkündür.

Dövlətimizin başçısı İlham Əliyev bugünlərdə Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən də bu məsələlərə xüsusi diqqət göstərərək bildirmişdir ki, azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Bu ərazilərdə istənilən fəallıq, inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə, biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın.

Cənab İlham Əliyev bunun üçün işin düzgün təşkil olunmasının vacibliyini bildirir. Təşkilatlanma işi düzgün həll edilməlidir. İşin keyfiyyəti təbii ki, ilk növbədə yüksək ixtisaslı kadrlardan asılıdır. Dövlətimizin başçısı İlham Əliyev inkişafa, tərəqqiyə yol açan islahatlardan bəhs edərkən daim kadr potensialının yaradılmasının gərəkliyini diqqətə çatdırır. Müasir texnologiyaların həyatımıza yol açdığı dövrdə bu məsələnin aktuallığı daha aydın şəkildə özünü büruzə verir. Vüqar Süleymanovu videoformatda qəbul edərkən də yeni yaradılan Minatəmizləmə Agentliyinə peşəkar kadrların cəlb edilməsinin prioritetliyi açıqlanmışdır. Çünki işğaldan azad edilmiş torpaqlarda işlərin sürətlə, keyfiyyətlə aparılması üçün agentliyin daha da böyük işçi qüvvəsi olmalıdır.

Cənab İlham Əliyev son illərdə bu sahədə texnoloji inkişafın özünü daha aydın şəkildə göstərdiyini vurğulayır. Mövcud mexanizmlər, texnika işin sürətini, eyni zamanda, keyfiyyətini artırmağa geniş imkanlar yaradır. Hər dövrün, zamanın tələblərinə uyğun təkmilləşmə yeni texnologiyaların da həyatımızın bütün sahələrində tətbiqini aktuallaşdırır. Əsas çağırış budur ki, Böyük Qayıdış tezliklə reallığa çevrilsin. Çünki 30 ilə yaxın müddətdə torpaq həsrəti ilə yaşayan qaçqın və məcburi köçkünlərimiz dövlətimizin onlar üçün lazımi şəraiti yaratmasına baxmayaraq öz doğma yurd-yuvalarına qayıtmağı, orada həyatı canlandırmağı istəyirlər. Bütün bunlar Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə planlaşdırdığı bərpa və quruculuq işlərinin təqdimatıdır. Ölkəmizin malik olduğu imkanlar bu ərazilərdə minaların təmizlənməsinin yüksək səviyyədə həyata keçiriləcəyinə inamı artırır. Əsas məsələ Ermənistanın beynəlxalq hüquqa, konvensiyalara zidd əməllərinə lazımi cəzanın verilməsidir. 44 günlük İkinci Qarabağ müharibəsinin verdiyi dərs heç zaman unudulmamalıdır.

***Yegan Əliyeva***

## "Ermənistan minalı sahələrin xəritələrini verməyəcəyi təqdirdə..."



"Ermənistanın Azərbaycan ərazisində 30 ilə yaxın müddətdə törətdikləri çoxşaxəli cinayətlər özünün müxtəlifliyi ilə fərqlənir. Burada ərazilərin etnik tərkibinin dəyişdirilməsi, torpaqların yandırılması, ekoloji mühitin və tarazlığın pozulması, təbii sərvətlərin məhv edilməsi ilə bərabər, eyni zamanda bu ərazilərin işğal rejimi dövründə minalanması Ermənistanın xalqımıza qarşı törətdiyi ağır cinayət formalarından biridir. Bütün beynəlxalq praktikalara görə işğal olunmuş və ya müdafiəsi zəruri bilinən ərazilərin minalanmasının xüsusi xəritələri olmalıdır. Bu ərazilər işğaldan azad edildikdə və yaxud həmin ərazilər normal sivil yaşam üçün açıldıqda mütləq şəkildə sözügedən sahələrin minalanması xəritələri qarşı tərəfə təqdim olunmalıdır". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin Baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Ekspertin sözlərinə görə, ümumiyyətlə hər hansı bir ərazinin minalanmasının özü də normal bir məntiqə və müdafiə zərurətinə söykənməlidir: "Ermənistanın Azərbaycan ərazilərini minalaması anormal və cinayətkar bir davranışdır. Baxmayaraq ki, həmin ərazilər Azərbaycan torpaqlarıdır, lakin işğal müddətində Azərbaycanın bu ərazilərdə ermənilərə qarşı hər hansı bir hücum niyyəti olmayıb. Ermənilər torpaqlarımızdan çıxarıldıqdan sonra minalanmış ərazilərin xəritələrini Azərbaycana təqdim etmirlər. Bu da Ermənistanın ikiqat cinayət törətdiyi barədə qənaətə gəlməyə əsas verir. Bütün beynəlxalq hüquq normaları, konvensiyalar minalanma ilə bağlı ciddi normativlər müəyyən ediblər. Ancaq Ermənistan heç bir halda beynəlxalq öhdəliklərə əməl etmək istəmir".

A.Quliyev vurğulayıb ki, Ermənistanın məqsədi daha çox mülki əhalinin və hərbiçilərin həlak olmasına nail olmaqdır: "Ermənilər işğalda olan əraziləri minalamaqla burada daha çox insan itkisinə nail olmağı planlayıblar. Ona görə də bu torpaqların minalardan təmizlənməsinə dünya birliyi, beynəlxalq təşkilatlar həm Azərbaycana yaxından köməklik göstərməli, həm də Minsk qrupunun həmsədrləri Rusiya Ermənistan tərəfini nəyin bahasına olursa olsun məcbur etməlidirlər ki, bu ərazilərin minalanma xəritəsini Azərbaycana təqdim etsinlər. Azərbaycan da öz növbəsində bu xəritə əsasında torpaqları təmizlənməsinə nail olsun. Bu gün Rusiya sülhməramlılarının özləri də müəyyən çərçivədə Azərbaycan sapyorları ilə birlikdə ərazilərin minalardan təmizlənməsinə köməklik göstərir. Minadan təmizləmə işlərinin daha sürətli və keyfiyyətlə həyata keçirilməsi, sözügedən ərazilərin minalardan daha tez təmizlənməsi Rusiyanın özünün də marağında olmalıdır. Ermənistana təzyiqlər göstərilməli və hərbi rəhbərliyindən bu ərazilərin minalanma xəritəsinin alınmasına nail olunmalıdır. Əks təqdirdə ərazilərin minalanma xəritəsini Azərbaycandan gizlətməklə Ermənistanın yeni bir əməlinin cinayət tərkibi yaranır ki, bu da Azərbaycanın gələcəkdə Ermənistana qarşı daha bir istiqamətdə beynəlxalq məhkəmə iddiaları qaldırmasına əsas yaradır".

***Aysel Məmmədova***

## "Ermənilər orta məktəbləri belə minalayıblar"



"Mən xatırlayıram ki, müharibənin dayandığı ilk günlərindən sonra, yəni Rusiya sülhməramlıları əraziyə yerləşdikdən sonra onlar minatəmizləmə işlərinə də başlamışdılar və Xankəndinin özündə, hətta məktəbləri belə minalardan təmizləyirdilər. Yəni, bu nəin göstəricisidir? Bu onun göstəricisidir ki, ermənilər həqiqətən də insanlıqdan uzaqdırlar. Yəni, bunlar hətta orta məktəbləri, balaca uşaqların oxuduğu orta məktəbləri belə minalayıblar". Bu sözləri SİA-ya verdiyi açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib. Siyasi şərhçi vurğulayıb ki, bu, heç bir qanuna, qaydaya, insanlığa sığan bir şey deyil.

"Hələ mən başqa əraziləri demirəm. Xankəndinin mərkəzindəki məktəbləri minalamaq o deməkdir ki, bunlar son məqamda hətta uşaqların oxuduğu məktəblərdə belə qətllər törətməyə hazır adamlardır. Zatən bizi təəccübləndirmir bu, çünki biz ermənillərdən Xocalı faciəsini görmüş adamlarıq . Yəni, bunlar qadın, qoca, yaşlı, uşaq bilmədən hər kəsə qarşı vəhşilik törədirlər. O cümlədən də hazırda işğaldan azad edilmiş ərazilərimizdə minalanmış yerlərin xəritələrinin verilməməsi də belə əməllərdəndir. Əslinə qalanda Ermənistan Azərbaycanın bu xoş məramı qarşısında, biz istəmədən belə özü o xəritələri bizə verməli idi. Yəni, özləri deməli idi ki, bəli, müharibə oldu, bitdi, anlaşdıq, ortaq bir məxrəcə gəlirik, problemi kökündən çözürük, insanlarımız rahat yaşasın, ermənilərlə azərbaycanlılar arasındakı o uzun illər davan edən düşmənçilik aradan qalxsın və bu mənada xoş məram olaraq biz sizə bu xəritələri veririk ki, əraziləri tez təmizləyəsiz, normal həyata qayıdaq. Amma göründüyü kimi, bunlar bunu etmirlər. Ona görə etmirlər ki, bu onların xislətindən irəli gəlir. Yəni, erməni xisləti deyilən şey bax budur. Bu adamlar düşünmür ki, nə qədər tez o ərazilər təmizlənsə, dinc insanlarımız nə qədər tez qayıdıb orada yaşasa, bu ermənilərin də xeyrinədir. Çünki, hazırda erməni əhalisinin yaşadığı ərazi kiçik bir ərazidir, orada kənd təsərrüfatı ilə məşğul olmaq, istehsalla məşğul olmaq üçün elə də ciddi imkanlar yoxdur. Amma Qarabağın digər ərazilərində, hansılar ki, Azərbaycan ordusu birbaşa nəzarət edir, Azərbaycan dövləti orada proqramlar həyata keçirir, həmin ərazilərdə iş yerləri çoxdur və təbiidir ki, normallaşan münasibətlər işığında ermənilər də gəlib həmin iş yerlərində işləyib çörək pulu qazana bilərlər. Yəni, bunu belə düşünmürlər və bu xislətlərindən irəli gəlir. Əlbəttə ki, deyirlər, yüzə dözən, yüz birə də dözər, yəni Azərbaycan bütün bu mərhələni səbrlə gözləyib, səbrlə davranıb və bundan sonra da səbrlə davranacaq, onların əlinə, onların ağalarının əlinə bəhanə verməyəcək ki, sabah kimsə bizi ittiham eləsin. Yəni biz sakit, rahat bir şəkildə hərəkət edirik. Bizim tələsən yerimiz yoxdur əslinə qalanda. Bu torpaqlar gec-tez əlbəttə ki, canlandırılacaq. Əlbəttə ki, minalardan təmizlənəcək, əlbəttə ki, insanlarımız ora qayıdıb orada yaşayacaqlar, əlbəttə ki, ermənilər Azərbaycan bayrağı altında yaşamağa məcbur qalacaqlar. Yəni, bütün bunlar bir gün gec, bir gün tez baş verəcək. Ermənilər o prosesi uzatmağa çalışırlar, amma bir şeyi unudurlar ki, uzatdıqca ən böyük zərəri özləri görmüş olurlar", deyə Azər Həsrət bildirib.

***İnam Hacıyev***

# Əslində 23 Fevral nə günüdür?

*Qırmızı Ordunun soyqırım əməliyyatları*

## SSRİ dönəmində "23 fevral" "kişilər" günü

Artıq tarixə qovuşaraq keçmişdə qalsa da açdığı atəşlərin güllə izləri hələ getməyib, vurduğu yaraların qaysağı hələ sağalmayıb. Dünyadan təcrid olunmuş, özünü- sovet vətəndaşını, izolə edilmiş tikanlı məftillər arasında "Xalqların qardaşlıq həbsxanasında" tutaraq xoşbəxtlik nəğməsi oxumağa vadar edən Sovet İttifaqının öz ideologiyası, öz bayramları var idi. Beynəlxalq təqvim və SSRİ sərhədlərindən kənar bütün varlıq və mövcudat sovet ideoloji pəncərəsindən baxılır, sovet ideoloji optik eynəyi vasitəsilə görülürdü.

Bu - "Xalqların qardaşlıq həbsxanası"nda hər şey sovet ideologiyası dalğasında çalışırdı. Göz yalnız ideoloji baxışla baxa, qulaq yalnız ideoloji siqnalları eşidə bilərdi və bu baxış və səs siqnalları düşüncəni müəyyən edirdi - sovet ideologiyasını.

Başqa cür görüb eşitmək isə düşüncəni korlaya bilərdi - bu isə cəmiyyətə yad elementin "xəstəliyin" , "virusun", epidemiyanın düşməsinə, yayılmasına səbəb ola bilərdi. Ona görə də Sovet tezliyindən kənar istənilən baxış və səs siqnalı qəbul edə bilən vətəndaş sadəcə olaraq məhvə məhkum idi.

23 Fevral Sovetlər dönəmində " kişilər bayramı", "kişilər günü" kimi illərlə şüurlara yeridilib, hətta hərbi xidmətlə bağlı bir nostalgiya da "uydurulub".




## Bəs əslində 23 Fevral nə günüdür?

Bu tarix 1918-ci ilin 23 fevralında baş verən hadisələrlə bağlıdır. Həmin tarixdə yenicə formalaşmaqda olan Qırmızı Ordu ilk dəfə iştirak etdiyi döyüşdə almanların hücumunu müvəffəqiyyətlə dəf edə bilmişdi. Məhz bu ilk qələbədən sonra - 1923-cü ildə Sovet İttifaqı qurulduqda 1918-ci il 23 fevralı Qırmızı Ordunun yarandığı gün kimi qeyd etməyə başladılar. 1923-1946-cı illərdə 23 fevral tarixi "Qırmızı Ordu və Donanma Günü", 1946-1993-cü illərdə isə "Sovet Ordusu və Hərbi Dəniz Donanması Günü" kimi qeyd olunmağa başladı.




Qafqazda azadlıq əldə etmiş gənc müstəqil dövlətlərə qarşı işğalçı hərbi əməliyyatlarda iştirak etmiş, kütləvi qırğınlar törətmiş XI Qırmızı Ordu Sovet Rusiyası qoşunlarının Qafqaz cəbhəsinin tərkibinə daxil edilmiş iri hərbi birləşmə idi.

Bolşevik inqilabı nəticəsində Ağ ordunun yox olması ilə Qafqazda qeyri-sabitlik meydana gəldi. Qafqazda 3 etnik millət olan; Gürcülər, Azərbaycanlılar və Ermənilər müstəqilliklərini elan etdi. Leninin Sovetləşmə planının ilk hədəfi Qafqaz idi. Bu səbəbdən ilk hədəf Gürcüstan Demokratik Respublikası idi. Qırmızı Ordunun üstün qüvvələri Tiflis Əməliyyatını təşkil edərək qısa müddətdə Gürcü qüvvələrini məğlubiyyətə uğratdı. Nəticədə Sovetlər birliyi Gürcüstanı özünə tabe etmişdir. Qırmızı Ordu Saritsını, Həştərxanı və bütünlükdə Şimali Qafqazın Xəzərboyu ərazilərini bolşevik nəzarətinə aldıqdan sonra cənuba doğru irəliləmək və Azərbaycanı işğal etmək tapşırığı almışdı. Həyata keçiriləcək işğalçılıq yürüşü Bakı əməliyyatı adlandırılmışdı. Ordunun bütün şəxsi heyəti 72472 nəfərdən ibarət idi. 1920-ci il aprelin 26-dan 27-nə keçən gecə Qırmızı Ordu qüvvələri qüvvələri heç bir xəbərdarlıq etmədən və beynəlxalq hüquq normalanın kobudcasına pozaraq müstəqil Azərbaycan dövlətinin Azərbaycan Xalq Cümhuriyyətinin sərhədini keçdilər Yalama və Sarvan döyüşlərindən sonra mövcud mürəkkəb şəraitdən istifadə edərək, qısa müddət ərzində ölkəni işğal etdilər. Azərbaycan Xalq Cümhuriyyətini süquta uğratdılar.

Sovet Rusiyasının rəhbəri Vladimir Leninin əmri ilə XI Qırmızı Ordu 1920-ci il aprelin 27-də Bakıya daxil olub və Azərbaycan Demokratik Respublikasını deviriblər. Bakının şimal girişində "XI Qızıl Ordu" dairəsi kimi tanınan ərazidə Azərbaycanı işğal etmiş əsgərlərə abidə ucaldılıb. Sonradan həmin ərazidə 1990-cı il, 20 yanvarda Bakıya daxil olan sovet qoşunları yüzlərlə adamı qətlə yetiriblər.

Məhz 100 il bundan əvvəl 28 aprel 1920-ci ildə Sovet qoşunları tərəfindən Şərqin ilk demokratik cümhuriyyətinin varlığına son qoyularaq bu ərazilər işğal edilib və bu imperiyanın əsarəti altında Azərbaycanın itirdikləri Çar Rusiyasının hakimiyyəti dövründə itirdiklərindən heç də az olmayıb. Həmin dövrlərdə Azərbaycanın sərvətləri talanıb, on minlərlə həmvətənimiz həlak olub.

Azərbaycan neftinə sahib olan bolşevik hökuməti təşəkkürünü repressiyalar, qətllərlə bildirdi. Araşdırmalara görə, 20-50-ci illərdə Stalin repressiyalarının qurbanı olmuş azərbaycanlıların sayı 350 minə yaxındır. Yalnız 150 min həmvətənimiz Qazaxıstanda həlak olub. Rusiyanın cəlb olunduğu II Dünya müharibəsində də 300 min azərbaycanlı dünyasını dəyişib.

1986-ci ildən sonra SSRİ-nin tərkibində olan respublikalarda vüsət alan ümumxalq hərəkatlarının iştirakçıları imperiya zülmünə qarşı çıxaraq müstəqillik uğrunda mübarizəyə qalxdılar. Qorbaçovun rəhbərlik sovet dövlətinin hərb maşını isə nəyin bahasına olursa-olsun xalqların milli-azadlıq hərəkatını boğmağa çalışırdı. Totalitar rejim süqutu ərəfəsində törətdiyi cinayətlər hesabına Qazaxıstanda, Gürcüstanda, Azərbaycanda, Litvada ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc insanlara divan tutdu, kütləvi terror nəticəsində yüzlərlə günahsız adam qətlə yetirildi və həbs olundu.

SSRİ prezidenti M.S.Qorbaçovun əmrilə 1986-cı il 17 dekabrda Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) 5-ci idarəsinin rəisi general-polkovnik Bobkovun rəhbərlik etdiyi hərbi qüvvə Qazaxıstan paytaxtı Alma-Atada keçirilən nümayişi yatırtmaq üçün bu Orta Asiya respublikasına yeridildi. Həmin gün Alma-



# Əslində 23 Fevral nə günüdür?

## *Qırmızı Ordunun soyqırım əməliyyatları*

Atada imperiyanın zülmünə etiraz edən dinc əhali küçələrə çıxmışdı. O vaxtadək sovet xalqlarına xilaskar ordu kimi təlqin edilən Qızıl Ordu dinc nümayişçilərlə vəhşicəsinə davranaraq onlara divan tutdu. Nəticədə 174 nəfər insan qətlə yetirildi, yüzlərlə insan yaralandı və həbs olundu.

Daha sonra 1989-cu il aprelin 9-da Gürcüstanda Moskvanın ikili siyasətinə etiraz edən kütlə Tiflisdə dinc nümayiş keçirirdi. Qorbaçovun göstərişilə Tiflisə yeridilən rus qoşunları Alma-Atada törətdikləri qanlı hadisələri burada da təkrarladılar. Tiflis olayları zamanı hətta əhaliyə qarşı kimyəvi silah da tətbiq olundu. Əməliyyat nəticəsində 19 nəfər qətlə yetirildi. Onlardan 15-i qadın (iki nəfər 15-16 yaşlı qızlar) olub. 1000-dən çox adam rus ordusunun onlara qarşı istifadə etdiyi kimyəvi silahdan zəhərləndi.





Bu qanlı hadisələrin davamı olan ən dəhşətlisi 1990-cı il 20 yanvar tarixində Qara Yanvar, bəzən Qanlı Yanvar faciəsi adlanan keçmiş Sovet İttifaqının qoşun hissələri tərəfindən fövqəladə vəziyyət elan edilmədən yeridilmiş və dinc əhaliyə divan tutulmuş həmin qırğında yüzlərlə insanın qətlə yetirilmiş, onlarla insan yaralanmış və itkin düşmüşdür. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçulardan 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Sovet qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycanın rayonlarında 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur; hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milislər olmuşdur.

1991-ci ilin yanvarın 13-də İmperiya rəhbərliyinin əmrilə bu dəfə Vilnüsə girən Qızıl ordu Litvada meydana çıxan ölkə vətəndaşlarına qarşı növbəti qətliamı törətdi. Dinc əhaliyə qarşı olunan bu zülmlər nəticəsində 14 nəfər öldürüldü, yüzlərlə insana ağır bədən xəsarətləri yetirildi. Bununla belə mübarizəni davam etdirən Litva xalqı 1991-ci ilin fevralında keçirilən referendumla müstəqilliyini elan etdi. Həmin il sentyabrın 6-da isə Rusiya Litvanın müstəqilliyini tanımağa məcbur oldu.



### Qırmızı Ordunun Azərbaycanlılara qarşı soyqırım əməliyyatı

Qırmızı Ordunun nəzdində olan 366 polku 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələrinin iştirakı ilə Xocalı şəhərini işğal etmişdir. Bu qanlı aksiya zamanı aylarla mühasirədə saxlanılan Xocalıya edilmiş hücum nəticəsində bir gecənin içində şəhər yerlə yeksan edilmişdir. Dinc əhaliyə amansızlıqla divan tutulmuş, 613 nəfər qətlə yetirilmiş, meyitlər təhqir olunmuş, 1275 nəfər girov götürülmüşdür. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl və qoca idi. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilmişdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Rus və Erməni silahlı qüvvələrinin başlatdığı raket, tank, top və kimyəvi silahların istifadə edildiyi hücumlarla Xocalıda tarixin ən vəhşi qırğını baş verdi.



### 23 Fevral nə günüdür?

Qırmızı Ordunun - SSRİ silahlı qüvvələrinin yaranma günü olan 23 Fevral "Xalqların qardaşlıq həbsxana"sının rəhimsiz, cinayətkar cəlladlarının strukturlaşdığı gündür. Bir çox xalqların və millətlərin düşməni olan sovet ideologiyası - bu düşüncə kənarında varlıq və mövcudatı bu sərhədlər daxilində təsəvvür edə bilmirdi. Xüsusən də Azərbaycan- Türk, müsəlman xalqını.

Qırmızı ordu və Sovet ideologiyası əks düşüncə, yad element və yaxud çərçivədən kənar mövcudatı dərhal məhv edirdilər. İkinci yanaşma yox idi.

23 Fevral - Sovet İttifaqı Silahlı Qüvvələr günü - Sovet sərhədləri daxilində "kişilər günü"nü sovet ideoloqları bu ordunu işğal edib kütləvi şəkildə məhv etdiyi xalqlara xilaskar, humanist ordu kimi beyinlərə yeridərək 23 fevralı "kişilər bayramı" kimi təqdim etmişdilər.

***RESURS***
***Analitik İnformasiya Mərkəzi***

# Zəngəzurda məhv edilmiş tarixi abidələrimiz

*Dağıntılar erməni vandallığınının daha bir əyani göstəricisidir*

Ermənilər bütün dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə ərazi iddiaları ilə məhdudlaşdırmayıb, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Azərbaycanın işğal altında olan ərazilərini xarabalığa çevirən ermənlər vəhşilik missiyalarını həyata keçiriblər. Artıq Azərbaycan 44 günlük Vətən müharibəsində Zəfər qazandı və yolumuzu gözləyən yurd yerlərimizdə abadlıq quruculuq işlərinə start verilib. İşğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli mənəvi dəyərləri təhqir edilmişdir. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sırada vurğulanmalıdır. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.

Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur.

## "...XALQIMIZA MƏXSUS MİNLƏRLƏ TARİXİ-MƏDƏNİ ABİDƏ VƏ YAŞAYIŞ MƏSKƏNİ DAĞIDILIB VİRAN EDİLMİŞDİR"

Bütün qeyd olunan bu və digər abidələrimizlə yanaşı, Ermənistan ərazisində məhv edilən Azərbaycan abidələrini də qeyd etməliyik. Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığınının bariz nümunəsidir. 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdların tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

Qərbi Azərbaycan ölkəmizin tarixinə gərən qədim bölgələrdən biridir. Burada mövcud olan qəbirsanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. Böyük bir irsin nümunələri bu yerlərdədir. Əhalisi soyqırım və deportasiyalara məruz qalmış tarixi Azərbaycan ərazilərindən biri də qədim Zəngəzur torpağıdır. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.



## URUD QALASINDAN XARABALIQLAR QALIB

Qədim tarixi olan Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndi ərazisində yerləşən qədim Azərbaycan - türk tarixi-memarlıq abidələri kompleksi olan Uruda daxil olan Urud qalası Urud kəndi yaxınlığında yerləşən tarixi türk qalasıdır. Xatırladaq ki, 1968-ci ildə ermənilər Urud kəndinin adını dəyişərək Vorotan, Urud qalasının adını isə Vorotanberd qoymuşlar. Urud kəndində 1988-ci ilə kimi yalnız Azərbaycan türkləri yaşamışlar. Bu kənddə ermənilərin ilk məskunlaşması 1988-ci ildən sonra olmuşdur.

Onu da qeyd edək ki, abidələr kompleksinin ən mühüm hissəsi isə Urud kəndi yaxınlığındakı orta əsrlər Azərbaycan məzarlığıdır. Məzarlıqda bədii tərtibatlı məzar daşları, qəbirüstü sənduqələr və qoç heykəlləri olmuşdur. Qəbiristanda 13 sənduqə, 4 qoç heykəlli məzar daş qeydə alınmışdı. Məzarlıq ermənilər tərəfindən dağıdılıb, Urud qalasının yalnız xarabalıqları qalır. Ermənilər Azərbaycan xalqının tarix və mədəniyyətinə dair fakt və həqiqətləri saxtalaşdırmaqla bərabər, abidələrin görünüşünü və yazılarını da süni şəkildə "erməniləşdirmişlər". Məkrli niyyət və mənfur siyasət sahibi olan ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm hərəkətləri hər zaman pislənilib. Tarix ədaləti bərpa edir. Hər zaman belə olub, bu gün də belə olacaq.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Bu gün Novruzun ilk çərşənbəsidir

**Bu gün Azərbaycanda Novruzun ilk çərşənbəsidir. SİA xəbər verir ki, artıq bu həftədən Su çərşənbəsi ilə Novruz bayramı üçün hazırlıqlar başlayır. İnanclara görə, Tanrı suyu ilk olaraq yaratdığı üçün ilk çərşənbə kimi su çərşənbəsi qeyd edilir.**

Bəzi mənbələrdə ona "əzəli çərşənbə", "gül çərşənbə" də deyirlər. Bu çərşənbədə suyun dirilməsi özünü göstərir. Qədim inanclara görə, bu çərşənbə suya tapınma inancı ilə başlayır. İnanca görə "təzə su", yəni səhər dan yeri sökülməmiş götürülən köpüklü ağ su min bir dərdin dərmanı sayılır.



Yaz fəslinin gəlişini xəbər verən Novruz bayramı ilin başlanğıcı kimi də qəbul edilir. Məhz buna görə də insanlar sudan onun kimi şəffaf və gözəl bir ilin keçməsini arzulaya bilərlər. İlk tonqalın su çərşənbəsində yandırılması buzların əriməsi, artıq qışın arxada qalmasının göstəricisidir. Su çərşənbəsində masa üzərinə su qoymaq, masada suyun aşması xeyirliyə yozulur. Əgər süfrənizdə su aşıb tökülərsə, həmin ilin sizin üçün bol bərəkət gətirəcəyi gözlənilir.

Su çərşənbəsi günü lal axan suyun üzərindən keçmək uğursuzluq əlaməti sayılır, həmçinin bu gün övladı olmayan bir qadının başından qırxaçar qabla su töksən, onun övladı dünyaya gələ bilər. Su çərşənbəsində hamının həyatində tonqal qalanır və bayram ovqatının yaxınlaşdığı nəzərə çatdırılır. Həmin gün insanların bir-birinin üzərinə su atması da uğura işarədir.

Qeyd edək ki, Azərbaycanda martın 2-də Od, martın 9-da Yel çərşənbəsi qeyd olunacaq. Novruzun ilaxır - Torpaq çərşənbəsi isə martın 16-da qeyd ediləcək. Bu il Azərbaycana yaz fəsli martın 20-də saat 13:37:00 ölkəyə qədəm qoyacaq. Martın 20-si ölkədə bayram axşamı, 21-i isə bayram günü kimi qeyd ediləcək.

Xatırladaq ki, Novruz bayramında beş gün - 20-24 mart qeyri-iş günü olaraq müəyyən edilib. Bu il 20-21 mart şənbə və bazar günlərinə təsadüf etdiyinə görə bu istirahət günləri martın 24-nə və 25-nə keçirilir. Sonrakı 27-28 mart tarixləri də şənbə və bazar günləri olduğu üçün ardıcıl olaraq 9 gün - 21-29 mart qeyri-iş günü olacaq.

# Xalqımız igid oğulları ilə qürur duyur

***Zərdab rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının birgə təşkilatçılığı ilə rayonun Hüseynxanlı kəndindən olan şəhid baş leytenant Abbasov Ağaqardaş İlham oğlunun yeni doğulmuş övladının Zərdab rayonunda təntənəli qarşılanma mərasimi təşkil olunmuşdur. Mərasimdə partiya fəalları, gənclər və şəhidin yaxın qohumları iştirak etmişdirlər.***

YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova şəhidin Vətən qarşısındakı xidmətlərindən danışmış, onun yadigarı olan İlknur balanın ailəsi, xalqı və vətəni üçün xeyrli övlad olmasını arzulamışdır. Şəhid övladlarının daim dövlətimizin, partiyamızın, eləcə də vətənpərvər insanların diqqət mərkəzində olacağını vurğulamışdır.





Baş leytenant Abbasov Ağaqardaş İlham oğlu 1992-ci il sentyabrın 28-i Zərdab rayonunun Hüseynxanlı kəndində anadan olub. Qəhrəman şəhidimiz Azərbaycan Dövlət Pedaqoji Universitetini Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə bitirib. Vətən müharibəsinin başlandığı ilk gündən ön cəbhədə xidmətə yollanan baş leytenant Ağaqardaş Abbasov ağır döyüşlərdə iştirak edib və qəhrəmanlıq göstərib. O, şəhidlik zirvəsinə ucalmazdan əvvəl doğulacaq körpəsinə İlknur adını qoyubmuş. Ağaqardaş Abbasov ötən ilin sentyabrın 28-də Füzuli istiqamətində gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək şəhid olub. Doğulduğu Zərdab rayonunda dəfn edilib.Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə Ağaqardaş Abbasov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Zümrüd BAYRAMOVA**

## Azərbaycan nə qədər hibrid avtomobil alıb?

2021-ci ilin yanvar ayı ərzində ölkəyə idxal edilən daxili yanma mühərrikli avtomobillərlə yanaşı, elektrik mühərriklə də hərəkətə gətirilən və yalnız elektrik mühərriklə hərəkətə gətirilən avtomobillərin sayı açıqlanıb. SİA-nın Dövlət Gömrük Komitəsindən əldə etdiyi məlumata görə, müvafiq dövrdə Azərbaycana daxili yanma mühərrikli avtomobillərlə yanaşı, elektrik mühərriklə də hərəkətə gətirilən 459 ədəd avtomobil idxal edilib.

Onların ümumi idxal dəyəri 2 milyon 321,3 min dollar təşkil edib. Ötən ilin yanvar ayı ilə müqayisədə idxal həcmi 30,3 faiz və ya 200 ədəd az olub. Eləcə də, ötən ay yalnız elektrik mühərriklə hərəkətə gətirilən iki ədəd avtomobil idxal edilib və onların ümumi idxal dəyəri 358,5 min dolları əhatə edib. 2020-ci ilin yanvar ayı ilə müqayisədə idxal həcmi 3,5 dəfə və ya beş ədəd az olub.

## Dünya bazarında neft bahalaşdı



Dünya bazarında neft bahalaşıb. Bu barədə "İnterfaks" məlumat yayıb. WTI markalı neftin aprel fyuçersləri 1,13 faiz bahalaşıb və bir barelinin dəyəri 59,93 dollar təşkil edib. "Brent" markalı neftin aprel fyuçersləri isə 1,29 faiz bahalaşaraq, bir barelinin qiyməti 63,72 dollar olub.

# Məşhur Məmmədov: "Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş, regionda lider dövlətdir"

"Sevindirici haldır ki, bu gün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin qonşu dövlətlərlə monolit birliyə və əməkdaşlığa malikdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hərtərəfli inkişafı, iqtisadi potensialının güclənməsi, həyata keçirilən müstəqil xarici siyasət ölkəmizin nüfuzunun yüksəlməsini, beynəlxalq aləmə daha sıx inteqrasiyasını, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsini təmin edib. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplmatik siyasətinin reallığıdır". Bu fikirləri "SƏS" qəzetinə açıqlamasında Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov deyib.

M.Məmmədov, xüsusi olaraq bildirib ki, ölkəmizlə əməkdaşlığın və tərəfdaşlığın getdikcə möhkəmlənməsinə Türkiyə kimi güclü qardaş dövlətin - Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanaraq yanında olması və onun atdığı istənilən addımı müdafiə etməsi, bir sözlə, bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan və Türkiyə münasibətləri dayanmadan inkişaf edir, əməkdaşlığın yüksək səviyyəsi hərtərəfli əlaqələrin gücündən və sarsılmazlığından xəbər verir: "Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplmatik siyasətinin reallığıdır. Məhz İkinci Vətən Müharibəsinin 44 gün ərzində 30 il işğalçı Ermənistandan azad olunan torpaqlarımız müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın dövlət başçısına olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, Türkiyə kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması və onun atdığı istənilən addımı müdafiə etməsi, həmçinin dost Pakistan dövlətinin ölkəmizə kömək etməyə hazır olduğunu bəyan etməsi, həmçinin qonşu



dövlətlər - Rusiya, İran və Gürcüstanın və digər tərəfdaş dövlətlərin haqq işimizi müdafiə etməsi, həmçinin, bir çox dövlətlər, beynəlxalq təşkilatlar Ali Baş Komandanımız, Prezident İlham Əliyevin son 17 illik Prezidentlik fəaliyyəti dövründə həyata keçirilən xarici siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Azərbaycanın mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməklə bu sahədə geniş təcrübəyə malik bir dövlətdir".

M.Məmmədov onu da vurğulayıb ki, artıq tariximizin yeni səhifəsinə qədəm qoyuruq: "Prezident İlham Əliyev görüşlərində də bir daha bildirib ki, artıq tariximizin yeni səhifəsi başlayıb: "İndi tariximizin yeni səhifəsidir. Azərbaycan azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün zəruri olan bütün tədbirləri görəcək. Bu, asan olmayacaq, çünki hər şey məhv edilib və işğaldan azad olunmuş əraziləri ziyarət etdikdə biz hər şeyin dağıldığını müşahidə edə bilərik. Bütün binalar, zavodlar, tarixi abidələr, sosial infrastruktur yerlə-yeksan edilib",-deyən dövlət başçısı bildirib ki, məhz buna görə də hər şeyə sıfırdan etməli olacağıq".

"Bizim siyasətimiz ondan ibarətdir ki, ölkəmizi modernləşdirək, ölkəyə ən qabaqcıl texnologiyaları gətirək". Bəli, Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun artmasının əsas səbəblərindən biri də "Ən islahatçı ölkə" imici qazanmasıdır. Dünya Bankının "Doing Business 2020" hesabatına görə Azərbaycan ötən ildə olduğu kimi, bu il də 20 ən islahatçı ölkələrin sırasında yer alması icmalının təqdimatında qeyd edilmişdi ki, son bir il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurlu islahatlar həyata keçirilib. Bu məsələ ilə bağlı Prezident İlham Əliyev demişdir: "Bizim siyasətimiz ondan ibarətdir ki, ölkəmizi modernləşdirək, ölkəyə ən qabaqcıl texnologiyaları gətirək. Azərbaycanda bütün iqtisadi və sənaye sahələrində ən qabaqcıl təcrübə tətbiq olunmalıdır, peşəkar kadrlar hazırlanmalıdır. Ölkəmiz uğurla inkişaf etməkdə davam edəcəkdir. Bizim təbii resurslarımız var, iqtisadi siyasətimiz var və bu, uğurlu siyasətdir. Beynəlxalq maliyyə qurumları Azərbaycanda bu sahədə aparılan işlərə çox yüksək qiymət verirlər. Yəni bu, həqiqəti əks etdirən qiymətdir və beləliklə, biz ölkəmizin uzunmüddətli inkişaf strategiyasını təmin edəcəyik".

"Ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu artıran digər səbəb isə, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Davos Ümumdünya İqtisadi Forumunun hesabatına istinadən Azərbaycan dünyada ikinci yerdə olması, eyni zamanda, bir sıra ölkələrin enerji təchizatçısıdır. Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Bir sözlə, bu gün Azərbaycanın beynəlxalq münasibətlər sistemində güclü ölkə olması, nüfuzunun ilbəil artması tanınmış ictimai-siyasi xadimlər tətəfindən də etiraf olunur. Artıq Azərbaycan dünyada qalib, öz haqq işi uğrunda sona qədər mübarizə aparan ədalətli dövlət kimi qəbul olunur. Regionun lider dövləti kimi, baş verən istənilən məsələ ilə əlaqədar ölkəmizin maraqları nəzərə alınır. Dünyanın başı üzərini koronavirus pandemiyası alan zaman dövlət başçımızın təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının təmas qrupu formatında videokonfrans şəklində COVID-19 pandemiyasına həsr olunmuş zirvə görüşlərinin keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir. Əslində, Azərbaycan bu təşəbbüslə çıxış edib problemi qlobal səviyyədə müzakirəyə çıxarmaqla bir daha dünya üçün nümunə oldu. Bu, möhtərəm Prezidentimizin beynəlxalq miqyasda xüsusi liderlik qabiliyyətinə malik şəxsiyyət kimi qəbul olunduğunu, ölkəmizin dünya birliyində reytinqinin getdikcə yüksəldiyini bir daha təsdiqlədi. Azərbaycanın beynəlxalq aləmdə nüfuzun qazanılması qalib ölkənin fateh sərkərdəsi - Azərbaycan Prezidentinin apardığı uğurlu xarici siyasətin nəticəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün Azərbaycan öz gücünə arxayın olan, bütün tərəfdaşlar ilə münasibətləri qarşılıqlı hörmət və ehtiram prinsipləri əsasında qurmağa çalışan, dinamik inkişaf edən gənc və eyni zamanda təcrübəli bir regional amildir".

**RƏFİQƏ KAMALQIZI**

# Baqramyan 26: "Gallup" araşdırma mərkəzi isbat edir ki, müxalifəti dəstəkləyən güclər..."

**"Müxalifət bu gün növbəti dəfə Nikol Paşinyana qarşı kütləvi etiraz mənzərəsini yaratmağa çalışacaq. Əgər bütün administrativ və maliyyə resursları işə salınarsa, küçəyə bir neçə min adamı çıxarmaq mümkün olacaq". SİA xəbər verir ki, bu barədə hakimiyyətyönlü erməni teleqram kanalı (Baqramyan 26) yazır.**

Qeyd olunur ki, əhalinin əsas hissəsi kimlərin erməni cəmiyyətinin başına gəlmək istədiklərindən nəticə çıxararaq revanşistləri ümumiyyətlə dəstəkləmir. O cümlədən, bir sıra nüfuzlu araşdırma mərkəzləri də erməni xalqının bütövlükdə müxalifəti təmsil edən keçmiş hakimiyyət adamlarına dəstək vermədiklərini müəyyən ediblər. "Gallup" araşdırma mərkəzi isbat edir ki, müxalifəti dəstəkləyən güclər 10%-i ötmür.

### "Bu adamlar illər ərzində hakimiyyətdə olarkən Ermənistanı bürüyən problemlərin heç birini həll edə bilməyiblər"

"Belə bir aşağı reytinq etirazlar arxasından Robert Koçaryanın kölgəsinin görünməsinə görə deyil", yazılan fikirdə bildirilir ki, erməni xalqı bu adamın hakimiyyətə yiyələnəcəyi təqdirdə erməni dövlətçiliyinin birdəfəlik demontaj olunacağını da yaxşı bilir. "Səbəblər həm də ondadır ki, ötən üç ayda "müxalifət" (dırnaqlar onlarındır-R.R.) hər hansı bir əsaslı gündəm təqdim edə bilməyib: "Bundan əlavə, bu adamlar illər ərzində hakimiyyətdə olarkən Ermənistanı bürü-



yən problemlərin heç birini həll edə bilməyiblər. "Müxalifətçilər" neçə həmsərhəd rayonları ziyarət ediblər? Neçə döyüş mövqelərini avadanlıqlarla, təchizatlarla təmin ediblər? Hospitallarda neçə yaralıya baş çəkiblər? Neçə qaçqın ailələrinə yardım göstəriblər? Açıq mənbələri araşdırsaq - sıfır".

### "Vətəni xilas edənlər" yeganə olaraq onlara qoşulmayanları, istər Nikol Paşinyanın elektoratı olsun, istərsə də 27%i təşkil edən neytral seqment olsun - onları təhqir etməklə seçiliblər"

"Vətəni xilas edənlər" ("Vətənin xilası naminə" ümummüxalifət hərəkatının lideri Vazgen Manukyanı və hərəkatı dəstəkləyən müxalifət partiyaları nəzərdə tutulur-R.R.) yeganə olaraq onlara qoşulmayanları, istər Nikol Paşinyanın elektoratı olsun, istərsə də 27%i təşkil edən neytral seqment olsun - onları təhqir etməklə seçiliblər. "Sürü", "zombi", "qoyunlar" - Ermənistanın patriotları yalnız bu kimi epitetləri irəli sürməklə guya Ermənistanı Paşinyanın hakimiyyətindən xilas etməyə çalışırlar. Baş nazirin özünü davamlı olaraq satqın adlandırırlar. Şübhə ya da ittiham etmirlər, məhz satqın adlandırırlar, guya ki, dövlətçiliyə xəyanət faktı artıq müvafiq orqanlar tərəfindən sübuta yetirilib".

### "Nə zamana qədər sübutlar təsdiqlənməyibsə və məhkəmə qərarı yoxdursa, Paşinyana qarşı yönələn "satqın" epiteti şər-böhtandır"

"Noyabrın 10-dan başlayaraq müharibənin hərtərəfli və detallı araşdırılması, günahkarların cəzalandırılması, o cümlədən Ermənistan rəhbərliyinin mühakimə edilməsi barədə danışılır", deyə qeyd edilən fikirdə əlavə olunur: "Nə zamana qədər sübutlar təsdiqlənməyibsə və məhkəmə qərarı yoxdursa, Paşinyana qarşı yönələn "satqın" epiteti şər-böhtandır, hətta bu sizin xoşunuza gəlməsə belə".

Sonda bildirilir ki, baş verənlər çərçivəsində sağlam düşünən erməninin məntiqini belə formalaşdırmaq olar: "Paşinyana dəstək göstərmək özünə hörmət etməməkdir, "müxalifəti" dəstəkləmək həm özünə, həm də millətə hörmət göstərməməkdir".

Beləliklə, bu faktın özündən belə bir nəticə çıxarmaq olar ki, heç də bütün Ermənistan xalqı ani-Paşinyn etirazlarına qoşulmayıb və bu gün az-çox öz keçmişlərini unutmayan ermənilər onu da yaxşı dərk edirlər ki, əgər revanşist müxalifətçilər, habelə keçmiş hakimiyyət adamları iqtidara yiyələnsələr vəziyyət daha ağır yönə doğru inkişaf edə bilər. Bu baxımdan, istər Vazgen Manukyan olsun, istərsə də Robert Koçaryan olsun - onların heç biri ümumxalq dəstəyinə malik deyillər və küçələrdə onlara dəstək göstərən 20-30 minlik kütləni də bütövlükdə erməni xalqı adlandırmaq doğru hesab edilə bilinməz.

**Rövşən RƏSULOV**

## "Qarabağın yenidən qurulması işlərində biz gənclər ön sırada olmalıyıq"

"Ötən il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsi tarixi Zəfərimizlə başa çatdı. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və Ermənistanın acınacaqlı məğlubiyyəti ilə nəticələnən Vətən müharibəsi, həmçinin Azərbaycanda xalq-ordu, xalq-Prezident birliyinin olduğunu bütün dünyaya nümayiş etdirdi". Bunu Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının üzvü Xanım Qədirova SİA-ya açıqlamasında deyib.



Onun sözlərinə görə, artıq torpaqlarımız işğaldan azad edilib və bizi qarşıda daha bir mühüm mərhələ, işğaldan azad edilmiş torpaqlarımızda bərpa işləri, Qarabağın yenidən qurulması gözləyir.

Xanım Qədirova bildirib ki, dövlətimiz Qarabağın yenidən qurulması istiqamətində lazım olan bütün addımlartı atır və bundan sonra da atacaq: "Amma hesab edirəm ki, bu məsələdə təkcə dövlət deyil, hər bir fərd, hər bir azərbaycanlı fəal olmalıdır. Yəni, müharibə zamanı olduğu kimi, quruculuq işlərində də birlik nümayiş etdirməliyik. Vətən müharibəsində olduğu kimi, Qarabağın yenidən qurulmasında da bir yumruq kimi birləşməliyik. Hesab edirəm ki, bütün proseslərdə olduğu kimi bu məsələdə də partiyamızın gənc üzvləri ön sırada gedəcəklər. Şəxsən mən bir könüllü olaraq işğaldan azad edilən torpaqlarımızda həyata keçiriləcək quruculuq-bərpa işlərində yaxından iştirak etməyə hazıram. Hesab edirəm ki, biz gənclər könüllü briqadalar yaradaraq doğma Qarabağımızda həyata keçiriləcək tikinti-quruculuq işlərində iştirak edə bilərik. Bir sözlə, Qarabağın yenidən qurulması işlərində biz gənclər ön sırada olmalıyıq".

# İrəvana qarşı tələb irəli sürüldü: mina xəritələri verilməlidir!

*Rusiyalı politoloqlar və nüfuzlu siyasətçilər beynəlxalq aləmi Ermənistana təzyiq göstərməyə çağırdılar*



İşğaldan azad olunmuş ərazilərimizdə mütəmadi olaraq baş verən mina partlamaları nəticəsində mülki şəxslərin, hərbçilərin həlak olma faktları artmaqda davam edir. Əgər nəzərə alsaq ki, ərazilərimizdə minaların təmizlənməsi funksiyasını yerli mütəxəssislərimizlə yanaşı Rusiya, Türkiyə, eləcə də digər ölkələrin minaaxtaranları da həyata keçirirlər və onların da



həyatları ciddi təhlükələrlə qarşı-qarşıya qalır, bu zaman həmin tələb özünü daha açıq şəkildə göstərməyə başlayır. Bu reallıq isə bir daha sübut edir ki, Ermənistan tərəfi heç bir konvensiya və beynəlxalq sənədlərə məhəl qoymadan, bütün tələbləri üzərindən xətlər çəkməklə hərbi cinayətlərini davam etdirir - minalanmış sahələrin xəritələrini Azərbaycan tərəfinə verməkdən imtina etməklə, müxtəlif bəhanələr gətirməklə və s. Artıq beynəlxalq ictimai rəy, nüfuzlu siyasətçilər, analitik və konfliktoloqlar da bu mövzu ətrafında həyəcan təbili vurur, İrəvanı konvensiyalara riayət etməyə çağırırlar.

ARXİV

### Azərbaycanın rus icmasının rəhbəri, millət vəkili Mixail Zabelin: "Həm Azərbaycan SQ-nin, həm də rusiyalı sülhməramlıların işlərində çətinliklər yaranır"

"Ermənistan hələ də Azərbaycana Qarabağda basdırdıqları mina sahələrinin dəqiq xəritələrini təqdim etməyib". SİA xəbər verir ki, bu barədə İnterfax Milli Məclisin deputatı, Azərbaycanın rus icmasının rəhbəri Mixail Zabelinin fikirlərini yazıb.

"Hazırda Qarabağda vəziyyət ərazilərin minalardan təmizlənməsi prosesinin getdiyinə görə çətindir. Minalardan təmizlənmə zamanı insanların ölüm halları baş verib. Təəssüf ki, erməni tərəfi hələ də bizə kəndlərin, qəsəbə və şəhərlərin minalardan təmizlənməsi üçün xəritələri təqdim etməyib. Burada isə həm Azərbaycan SQ-nin, həm də rusiyalı sülhməramlıların işlərində çətinliklər yaranır", deyə Zabelin Moskva-Bakı teleköpüsü zamanı bildirib.

### Rusiyanın Siyasi araşdırmalar institutunun baş direktoru, politoloq Sergey Markov: "Əgər minalar xəritələr tərtib olunmadan haraya gəldi basdırılıbsa, artıq bu, hərbi cinayətdir"

"İndiyə qədər erməni tərəfinin dəqiq xəritələri yoxdur və nəticədə mülki vətəndaşlar, azərbaycanlı əsgərlər ölürlər, rusiyalı sülhməramlıların da ölüm təhlükələri var, əlbəttə bu məsələ bizim hamımızı narahat edir. Bu, erməni tərəfinə yönələn əsas tələbdir. Əgər minalar xəritələr tərtib olunmadan haraya gəldi basdırılıbsa, artıq bu, hərbi cinayətdir və belə insanlar Ermənistanda mühakimə olunmalıdırlar. Əgər kimsə mühakimə olunmayıbsa, demək həmin xəritələr var", Rusiyanın Siyasi araşdırmalar institutunun baş direktoru, politoloq Sergey Markov bildirib.

Onun sözlərinə görə, dünya ictimaiyyəti müvafiq xəritələrin Azərbaycana verilməsi üçün Ermənistana təzyiq göstərməlidir.

### "Milli müdafiə" jurnalının baş redaktoru, politoloq İqor Korotçenko: "Rusiya və Avropa ölkələri İrəvanla münasibətlərdə öz nüfuz və avtoritetliklərini istifadə etməlidirlər"

Rusiyalı hərbi ekspert, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko isə öz növbəsində bildirib ki, Ermənistanın minalanmış əraziləri təyin edən xəritələri təqdim etməsi regionda sülhün və təhlükəsizliyin sabitləşdirilməsi baxımından çox mühümdür.

"Həmçinin, müvafiq beynəlxalq təşkilatların bu məsələdə iştirakları vacibdir. Biz keçmiş Yuqoslaviyada münaqişə başa çatdıqdan sonra göstərilən köməkləri xatırlayırıq. Hesab edirəm ki, Azərbaycana da beynəlxalq təşkilatların xətti ilə müvafiq köməklik göstərilməlidir. Əlbəttə ki, Rusiya və Avropa ölkələri İrəvanla münasibətlərdə öz nüfuz və avtoritetliklərini istifadə etməlidirlər ki, o da Azərbaycana minalı sahələrin xəritələrini versin", deyə Korotçenko bildirib.

***Rövşən RƏSULOV***

# "Xankəndidəki yürüş erməni ideoloqlarının çaşqınlığından xəbər verir"



"Ermənistanda əsas müzakirə və mübahisə mövzusu 44 günlük müharibənin hansı səbəblərdən uduzulması üzərindədir. Fikirlər müxtəlifdir, həm hakimiyyətdəkilər, həm də müxalifətdə təmsil olunanlar fərqli arqumentlər səsləndirirlər. Hətta biri digərini satqınlıqda, qorxaqlıqda, səriştəsizlikdə ittiham edirlər. İttihamların məzmunu müxtəlif olsa da, mövzusu, ideyası eynidir". Bunu "Səs" qəzetinə açıqlamasında Mətbuat Şurasının sədr müavini, media eksperti Müşfiq Ələsgərli deyib.

Media eksperti bildirib ki, ermənilər müharibəni, yəni, Dağlıq Qarabağdakı işğal siyasətini uduzublar, torpaqları sahibinə, Azərbaycana qaytarıblar, məğlub duruma düşüblər, itkilər veriblər: "İndi onları narahat edən məqam təkcə Dağlıq Qarabağ deyil, həm də, Ermənistan dövlətinin taleyidir, gələcək durumudur. Müxalifətin vahid lideri olan Vazgen Manukyanın, keçmiş prezident Serj Sarkisyanın ötən həftə ərzində KİV-lərə verdikləri müsahibələr onu göstərir ki, Ermənistanın gələcəyinə baxışları dumanlıdır.Bu ölkəni suveren dövlət kimi yaşada biləcəklərinə şübhə edirlər. Onlar 44 günlük müharibə çərçivəsində aldıqları zərbələrdən sonra Ermənistan dövlətini necə yaşadacaqlarından narahatdırlar. Yolları tükənib. Belə bir vaxtda Xankəndidə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-yə birləşmə haqqında qərarın ildönümünün, yaxud, "Dağlıq Qarabağın müstəqilliyi" təqviminin qeyd edilməsinə nə anlam verməkdə olar? "Artsax" artıq mövcud deyil, onun birləşmə ehtimalı olan Ermənistanın gələcək taleyi qaranlıqdır, özünün yaşaya biləcəyi şübhəlidir. Bunumu bayram edirlər. Əslində bayram, təntənə ovqatları yoxdur, matəm içindədirlər".

M.Ələsgərli qeyd etdi ki, ermənilərin Xankəndidə keçirdikləri yürüş üçün seçdikləri musiqi fonuna, ziyarət etdikləri məkanlara diqqət etsək görərik ki, bu, matəm mərasimidir, nostalji hissindən doğan kədər halıdır: "Mən erməni ideoloqlarının KİV-lərdə çıxışlarını izləyirəm. Uzun müddətdir ki, müzakirə edirlər, "xalqı məğlubiyyət, matəm ovqatından çıxarmağın zəruriliyindən" danışırlar. Çoxsaylı təkliflər verirlər, icra etməyə çalışırlar, amma nəticə əldə edə bilmirlər. Çaşqın durumdadırlar. Xankəndidə yürüş keçirmək ideyalarını da bu kontekstdə dəyərləndirmək olar".

***Gülyana***

# Erməni jurnalist: Nikol Paşinyan babası kimi satqındır





Məşhur erməni jurnalist və bloger Karen Vrtanesyan baş nazir Nikol Paşinyanın əməllərinə görə babasına bənzədiyini deyib. Azvision.az xəbər verir ki, onun sözlərinə görə, Nikol xəyanətkarlıqda, satqınlıqda adını daşıdığı məşhur babasını da geridə qoyub. "Yadınızdadırsa, müəyyən bir vaxtda Ermənistan baş naziri Nikol Paşinyanın babasının İkinci Dünya Müharibəsi zamanı düşmənə satılması barədə tarix müzakirə olundu. Həmin məsələlər tez bir zamanda unuduldu. İndi demək olar ki, bu hekayənin həqiqət olduğuna şübhə etmirəm. Nəvə artıq öz "uğurları" ilə babasını dəfələrlə üstələyib...", - deyə erməni jurnalist vurğulayıb.

Xatırladaq ki, ötən ilin may ayında Nikol Paşinyanın babasının faşistlərə xidmət etdiyi, onlarla əməkdaşlığa getməsi məlum olmuşdu.

Paşinyan babası, 1913-cü il təvəllüdlü Nikol Paşinyanın fotosunu paylaşaraq, onun İkinci Dünya müharibəsi illərində "vətən" üçün döyüşdüyünü qeyd etmişdi. Bu paylaşımdan sonra Ermənistan mətbuatı araşdırma apararaq, arxivlərdən baba Paşinyanın əslində faşistlərə xidmət etdiyini üzə çıxarmışdı. Mətbuatın araşdırması zamanı məlum olub ki, Ermənistan SSR-in Yenokavan bölgəsində anadan olmuş Nikol Paşinyan düşmənlə əməkdaşlıq edib və öldürülüb.

# "Ermənistanla deyil, ağası ilə danışmalıyıq"

**Düşməndən bundan artığını gözləmək də əbəsdir, yəni, düşmən ölkədir, işğalçı ölkədir və biz torpaqlarımızı işğaldan azad etmişik. Bu sözləri SİA-ya verdiyi açıqlamasında "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib.**

Mərkəzin rəhbəri qeyd edib ki, ərazilərin böyük hissəsini ermənilərin minaladıqlarını, hara gəldi minalar basdırdıqlarını biz əvvəl də bilirdik.

"Ola bilməz ki, bu minaların xəritəsi olmasın. Bu barədə hətta rusiyalı mütəxəssislər də deyirlər.



Məsələn, rusiyalı hərbi ekspert İqor Karotçenko Azərbaycana da gəldi və Moskvada mətbuat konfransında açıq formada dedi ki, mütləq mənada bu xəritələr var. Amma Azərbaycana daha çox zərər yetirmək üçün onlar bu xəritəni vermirlər. Onlara anlatmalıyıq, yəni, əgər xəritələri bizə verməsələr, bizim də əlimizdə başqa alətlər var ki, təzyiq edə bilərik onlara. Yəni, onsuz da müharibədə məğlub olublar, dəmir yumruq başlarına dəyib, amma biz vətəndaşlarımızı itirə bilərik bu minaların partlaması nəticəsində. Bu minalar getdikcə partlayır. Düzdür, dövlət başçısının təlimatı ilə minatəmizləmə işləri sürətlə davam edir, müxtəlif ölkələrlə də biz əməkdaşlıq edirik. Amma minalar o qədər çoxdur ki, onlar partlamaqda davam edər, illər ərzində bizim mülki insanlar zərər görə bilərlər. Ona görə də biz Ermənistanla deyil, ağası ilə danışmalıyıq. Ağası da bəllidir ki, Rusiyadır. Rusiyaya deməliyik ki, yaxşı, biz sizə icazə verdik, hərbçiləriniz gəldi Dağlıq Qarabağa sülhməramlı adı altında. Halbuki, müəyyən təxribatlar da olub. Yaxşı, heç olmasa onlar ermənilərdən tələb etsinlər və bu, rusların özlərinə də ziyandır axı. Bir müddət öncə rus hərbçilərindən biri də həlak olmuşdu mina partlaması nəticəsində. Onlar üçün də asan olar ki, xəritələr onların əllərinin altında olar. Bir tərəfdən barış deyirlər ermənilər, bir tərəfdən də minaların partlaması o deməkdir ki, müharibə hələ bitməyib. Ona görə biz ermənilərdən yox, onların ağasından tələb etməliyik ki, bu məsələyə bir çarə qılsınlar. Çarə qılınmasa, minalar partlamağa davam etsə, biz adekvat addımlar haqqında düşünməliyik", deyə Elxan Şahinoğlu bildirib.

***İnam Hacıyev***

# AXC-nin qurucusu radikalların planlarını ifşa etdi

**“Ənənəvi müxalifət gerçək dünyada siyasi mübarizəsini hakimiyyətə tam uduzandan sonra köçüb virtual dünyaya, orada xeyli sayda internet-kanal açıb və oradan tələb edir ki, rus sülhməramlı qoşunları Dağlıq Qarabağdan çıxsın”. SİA xəbər verir ki, Azərbaycan Xalq Cəbhəsinin yaradıcılarından və fəallarından biri kimi tanınan, hazırda politologiya ilə məşğul olan Azərbaycan Sosial-Demokrat Partiyasının (ASDP) sabiq lideri Zərdüşt Əlizadənin ölkədaxili gündəmdə maraq doğuran fikirləri yayımlanıb.**

Onun sözlərinə görə, radikal müxalifət bu gün müxtəlif cəhdləri ilə Azərbaycanın qələbəsinə kölgə salmağa cəhdlər göstərir, gerçək dünyada imza toplayırlar, məqalələr yazıb Qarabağın de-fakto itirildiyini deyirlər, Azərbaycanın məğlubiyyətinə yas məclisi qururlar.

### ASDP-nin keçmiş lideri: “30 il keçib, bu uzun müddət ərzində ənənəvi müxalifət maralları və onların cığırdaşları niyə ağıllanmayıblar?”

“İnternetdən istifadəni öyrənib bunu müasir biliyin zirvəsi hesab edən çoxsaylı istifadəçi isə onların bu fikirləri ilə həmrəylik nümayiş etdirirlər”, - deyə yazan Z.Əlizadə bu metamorfozadan və müxalifətin Azərbaycan Ordusunun Qarabağdakı qələbəsini məğlubiyyət kimi qələmə vermək istəyindən son dərəcə təəccüblənir: “Niyə? Milli hərəkatın qaynar çağından 30 il keçib, bu uzun müddət ərzində radikal müxalifət maralları və onların cığırdaşları niyə ağıllanmayıblar? Bunun səbəbi aydındır. Onlar yenə hakimiyyətə can ataraq ali məqamda əyləşən şəxsi yamanlamaq, gözdən salmaq, haqlı olsa belə, nahaq göstərmək şakərindən əl çəkməyiblər. Onların ənənəvi siyasi mübarizə üsulu yalandır, böhtandır, şərdir. Bir dəfə bu yolla gedib Azərbaycanın başına daş saldılar, hakimiyyəti məngirləyib bir il bildirçinin bəyliyini etdilər, görünür, bunu yenə təkrarlamaq istəyirlər”.

### Müxalifətçi politoloq: “İlham Əliyevin indiki Qarabağ siyasəti düzgündür və xalqımızı addım-addım tam qələbəyə aparır”

ASDP-nin keçmiş lideri müxalifçilik etdiyini desə də, həmin siyasi baxışının AXC-Müsavat cütlüyündən tamamilə fərqləndiyini bildirib və hakimiyyətlə dövlət anlamı arasındakı fərqi gördüyünü deyib: “Məhz buna görə deyirəm ki, İlham Əliyevin indiki Qarabağ siyasəti düzgündür və xalqımızı addım-addım tam qələbəyə aparır”.



Zərdüşt Əlizadə: “Sayıq olun, xainlər heç cür sakitləşmək istəmirlər”

Onun sözlərinə görə, ənənəvi müxalifətçilər Azərbaycan xalqına qarşı xəyanətlərini təkrar edirlər. Belə ki, 2020 il 10 noyabr Bəyanatı Azərbaycana xeyirdir: “Çünki əminəm ki, ənənəvi müxalifət də, onların küyünə gedən qaragüruh da son 30 ildə Qarabağ mövzusunda yazdığım yüzlərlə məqaləni oxumayıb. 10 noyabr Bəyanatından əvvəl, Qarabağ müharibəsinin ilk mərhələsində, BMT-nin Təhlükəsizlik Şurasında Fransanın, ABŞ-ın və Rusiyanın birgə dəstəklədiyi bir qətnamə layihəsi müzakirəyə çıxarıldı. Layihənin məğzi ondan ibarət idi ki, Azərbaycan hərbi əməliyyatı dərhal dayandırsın. Müzakirələr vaxtı bəlli oldu ki, həqiqi niyyətlər daha uzaq məqsədlərə yönəlib. Azərbaycan müharibəni dərhal dayandırmasaydı, həmsədr dövlətlər 1990-ların əvvəllərində Azərbaycanın xeyrinə qəbul edilmiş qətnamələri təftiş edən və son 30 ildə mövcud olan gerçəkliyi nəzərə ala biləcək yeni bir qətnamə layihəsini müzakirəyə çıxarmağı nəzərdə tuturmuşlar. Yəni yeni qətnamə layihəsi, qəbul olunardısa, BMT TŞ Qarabağ üzərində Azərbaycanın suverenliyini, əvvəl olduğu qədər, birmənalı tanımayacaqdı”.

### Zərdüşt Əlizadəyə görə: “Həmin an bunun qarşısını Britaniya və Qoşulmamışlar hərəkatından BMT TŞ-nın üzvü olan qeyri-daimi üzvlər aldılar”

Lakin bu qaranlıq niyyətin də qarşısının alındığını yazan politoloq bildirib ki, bu məsələdə Britaniya və Qoşulmama hərəkatının da mühüm rolu olub. “Xoşbəxtlikdən, həmin an bunun qarşısını Britaniya və Qoşulmamışlar Hərəkatından BMT TŞ-nın üzvü olan qeyri-daimi üzvlər aldılar. Ala bildilər, təhlükə müvəqqəti sovuşdu, lakin tam yoxa çıxmadı. Bəlli oldu ki, Cənubi Qafqazda hərbi-siyasi vəziyyət qəfildən Azərbaycanın ziyanına, Ermənistanın xeyrinə dəyişə bilər. Bunun üçün Azərbaycan Ordusunun Xankəndinə daxil olması, dünya mediasının “yeni erməni soyqırımı” şivəni qoparması, Rusiyanın bu “soyqırımın “ qarşısını almaq üçün Gümrü bazasındakı qoşunlarını Qarabağa yeritməsi və təbii ki, rus ordusu ilə Azərbaycan Ordusu arasında döyüşlərin başlaması, bu zaman Türkiyənin məcbur olaraq hərbi münaqişəyə qarışması və Azərbaycan ərazisində genişmiqyaslı regional müharibənin qızışması kifayət idi”.

**“Qarabağ, Azərbaycan və Ermənistan, Cənubi Qafqaz uğrunda mürəkkəb və mübhəm oyunlar gedir, Azərbaycan Respublikası bu oyunu şəksiz öz xeyrinə yönəldə bilib”**

Z.Əlizadə 30 il keçsə də, müxalifətin dəyişmədiyini bildirib: “Bu 30 ildə dünya xeyli dəyişib, bəs siz niyə dəyişməmisiniz? 1990-cı ildə xalqı fəlakətə sürükləyən AXC liderlərini qəhrəman saymaq olardı, çünki onların iç üzü hələ açılmamışdı, bəs indi də bunu anlamırsınız? Qarabağ, Azərbaycan və Ermənistan, Cənubi Qafqaz uğrunda mürəkkəb və mübhəm oyunlar gedir, Azərbaycan Respublikası bu oyunu şəksiz öz xeyrinə yönəldə bilib və bu vaxt bir ovuc dünyadan bixəbər vəzifə hərisi oyuna qatılıb öz ənənəvi cığallığı ilə qələbəmizi məğlubiyyətə çevirmək istəyirlərsə, bunun adını nə qoymaq olar? Sayıq olun, xainlər heç cür sakitləşmək istəmirlər, onlar suyu daim bulandırmağa hazırdırlar...”.

*Rövşən RƏSULOV*

# Dünyada ilk sivilizasiyaları kim və harada yaratdı?

*ELMİ İZAH*



Təxminən 5000 il əvvəl - bizim eradan 3100 il əvvəl - bu gün bizim Qədim Misir adlandırdığımız bir dövlət yarandı. Mesopotamiyada, Çinin şimalında, Hind Vadisində və digər yerlərdə bəşəriyyət tarixində ilk sivilizasiyalar və dövlətlər meydana çıxdı. Bəs niyə nisbətən qısa bir müddətdə həyat bu qədər kəskin şəkildə dəyişdi və insanlar şəhərlər və şəhər sivilizasiyaları yaratdılar? Pravda qəzetində dərc olunan elmi məqalədə bu suallara aydınlıq gətirməyə çalışılıb. Məqaləni oxucularımıza təqdim edirik.

Bu sualı cavablandıran arxeoloqlar və antropoloqlar sosial təbəqələşmə, monarxların gücü, dəyişən şəxsiyyətlər, dəyişən texnologiyalardan bəhs edirlər. Bu “insan amilləri” sadalanarkən ətrafdakı dəyişikliklər nəzərə alınmaya bilər. Sanki “aktyorlara” o qədər aludə olduq ki, “səhnə” ni tamamilə unutduq.

Nil deltasının palçığında qazılmış qatlardan çıxan qum və palçıq təbəqələri keçmişə dair müəyyən bir faktlar verir. Deltanın müxtəlif vaxtlarında necə göründüyünü göstərən xəritələr yaratmaq üçün delta boyunca bir çox quyu qazmaq kifayətdir. Maraqlıdır ki, çox oxşar ekoloji dəyişikliklər Mesopotamiya, Hind-Çin və dünyanın ilk dövlət quruluşlarının meydana gəldiyi digər yerlərdə də baş verdi. Üstəlik, landşaft dəyişikliyinə insanlar səbəb olmadı, buzlaşmadan sonra dəniz səviyyəsinin qalxması yavaşıdı və sabitləşdi.

### Təbii dəyişikliklər qədim Misir dövlətinin yaranmasına necə kömək etdi?

Dəniz səviyyələri sabitləşdikcə çaylar fərqli davranmağa başladılar, tədricən geniş bir bataqlıq ərazisini keçən kiçik, dinamik axınlar şəbəkəsindən daha geniş, açıq, yaxşı qurudulmuş sel sahillərinə doğru irəlilədilər. Bu dəyişikliklərin necə təsir etdiyini təsbit etmək daha çətindir. İnsanların ətraf mühitlə necə qarşılıqlı əlaqədə olduğunu öyrənməyin bir yolu, əsas qidalanma ehtiyaclarını necə təmin etdiklərini tapmaqdır.

Mümkündür ki, bataqlıq mühiti çox müxtəlif qida mənbələri üçün kifayət qədər bərəkətli yer olduğuna görə yaşamaq üçün gözəl bir yer idi. Əlbəttə ki, bataqlıq sahillərində əkinçilik etmək heç də asan deyil, ancaq balıq və çöl heyvanlarını ovlamaq və ev heyvanlarını saxlamaq olar. Ancaq mühit dəyişdikcə Nil deltası getdikcə daha az vəhşi heyvan qidası ilə zənginləşdi. Alimlər bir neçə yüz ildə deltanın əsas qida potensialının təxminən 45%-ni itirəcəyini təxmin edirlər. Hər bir sonrakı nəsil özünü qidalandırmaq üçün getdikcə daha çətinliklə qarşılaşır.

Aşkar həll yolu torpaq becərmə miqyasını artırmaq idi. Əkinçilik, müəyyən bir torpaq sahəsindən əldə edilə bilən qida miqdarını maksimum dərəcədə artırmaq üçün son dərəcə təsirli bir ixtiradır. Maldarlıqdan əkinçiliyə keçmək asan olardı, çünki yalnız bir neçə nəsil boyunca deltanın sakinləri buğda və arpa yetişdirməyi, donuz və mal-qara yetişdirməyi bilənlərlə tez-tez əlaqə saxlayırdılar.

### İnsan nə yeyirsə odur

Tədqiqatçılar, bizim eradan əvvəl 4000-3000 illər arasında insanların nələr yediyini analiz etdikdə bataqlıq mənzərələrində deltanın sakinlərinin yemək üçün ov ovladığı ortaya çıxdı. Daha sonra donuz yetişdirməyə və müxtəlif məhsullar yetişdirməyə başladılar. Alimlər hətta nə qədər qida istehsal edə bildiklərini hesablaya bildilər.

Bəs bunun xüsusiyyəti nədir? Bir çox cəmiyyətlər son 10 min ildə kənd təsərrüfatına ciddi yanaşdı, lakin sivilizasiyalar hər yerdə ortaya çıxmadı. Bəlkə də cavabın Nil deltasının böyük ölçüsü ilə bir əlaqəsi var. Deltanın əkinçilik potensialı, o vaxta qədər rəqib krallıqların toplusu olan Misirin qalan hissəsindən ən az 40% daha çox idi.

Qısa bir müddətdə, təxminən eramızdan əvvəl 3100-cü illərdə artıq delta dünyanın ilk dövlətinin nəzarəti altına alındı. Mənbələr Nil deltasındakı təbii mənzərədəki dəyişikliklərin nəinki yerli səviyyədə kənd təsərrüfatı texnologiyalarının yayılmasını stimullaşdırmağa kömək etdiyini, eyni zamanda ilk dövlətin yaranmasında da rol oynadığını göstərir.

Bənzər proseslər Mesopotamiya və Şimali Çində olduğu kimi coğrafi, tarixi mənzərələri, balıq ovundan əkinçiliyə keçid və digər sosial-mədəni meylləri olan bölgələrdə də baş vermiş kimi görünür.

*Elçin Bayramlı*

# Xain xoflu olar - Əli Kərimli öz ampulasında

**Çığallıq, şüvənlik və paxıllıq müxalifətin radikal kəsiminin qanına işləyib sanki. Bu vaxta qədər Qarabağ işğal altında idi və hər fürsətdə məsələni kontekstdən çıxarıb istədikləri səmtə yozurdular. İndi isə Qarabağ azaddır, özü də Qüdrətli Azərbaycan ordusu onu qanı, canı bahasına azad edib. Di gəl ki, bu kəsimin ağzı düzəlmir ki, düzəlmir...**

Dövlət başçısı, hətta dünya səviyyəsində elan olunur ki, artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur, Azərbaycanın ərazi bütövlüyü tam təmin olunub, radikallar isə deyir ki, yox, rus sülməramlıları hələ oradadır. Daha bir “iradları” isə guya Türkiyənin proseslərdən kənarda tutulmasıdır. Onların iddiasına görə, guya Türkiyə sülməramlı missiyadan kənarda qalıb və buna görə Azərbaycandan inciyib. Radikal müxalifətin “lideri” Əli Kərinlinin timsalında bu yanaşma olduqca gülüncdür, deyilmi?

Sanki adam ölkədə və bölgədə baş verənlərdən xəbərsizdir. Təbii ki, xəbəri var. Sadəcə, özünə sərf edən səmt deyil. Elə ki, dövlət başçısı Dağlıq Qarabağ və ətraf bölgələrin işğal tarixini faktlarla sadalayır və bunun işdə AXC-Müsavat hakimiyyətinin birbaşa əli olduğunu deyir, o zaman radikal cəbhədə qəzəbdən doğan qərəzlilik baş qaldırır. Nəticədə, yuxarıdakı kimi absurd fikirlər ortaya çıxır.



Bəyəm, Əli Kərimli rusiyalı sülməramlıların nə üçün Qarabağa yerləşdirilməsini bilmirmi? Onların fəaliyyətini və ya fəaliyyət müddətini dəqiq müddəalarla əks etdirən bəyanatdan xəbərsizdirmi? Bəlkə, Türkiyə-Rusiya birgə Monitorinq Mərkəzinin yaradılmasından və hazırda fəaliyyətdə olduğundan da xəbəri yoxdur? Bu, Türkiyənin birbaşa proseslərin içərisində olduğu demək deyilmi? Əlbəttə, başda Əli Kərimli olmaqla, radikallar bütün bunları çox yaxşı bilirlər. Sadəcə, “xain xoflu olar” deyimi ilə yanaşsaq, hər şey çox aydın görünəcək.

Məhdud tərəfdarlarına da özündən keçən məhz bu xüsusiyyət Əli Kərimlinin ən böyük bəlasıdır. Bu bəla ona ağı qaradan, qaranı isə ağdan seçməyə imkan vermir. Odur ki, məntiqsiz və absurd yanaşmaları ilə ürəkləri bulandırmaqda davam edir. Lakin unutmayaq, dəyirman öz işindədir, çaxçax isə baş ağrıdır...

# Tarixi geri qaytarmaq, nə də onu silmək mümkün deyil

## Manqurtlaşmışların qanun qarşısında cavab vermələrinin zamanıdır!

Tarixi geri qaytarmaq mümkün deyil, onu olduğu kimi qəbul etmək lazımdır. Çünki o, yalanı sevmir. Ancaq bu gün müxalifət düşərgəsi deyilən dağıdıcı bir məkanda özlərini "siyasətçi" adlandıran "liderlər"də nə siyasət, nə də əxlaq var. Çünki onlar anlamırlar ki, siyasət heç də həmişə əxlaq peşəsi hesab olunmayıb. Bu yerdə ABŞ-ın tanınmış siyasətçilərindən birinin dediyi fikri xatırlamaq yerinə düşər: "Siyasətçi valideynlərini qətlə yetirən, sonra yetim olduğuna görə məhkəmədən aman gözləyən insana bənzəyir".

Dağıdıcı müxalifətin, nəinki bugünkü, ümumiyyətlə, atdığı bütün addımlar xaricdəki erməni lobbi təşkilatlarının və xaricdəki anti-Azərbaycan qüvvələrin fəaliyyəti ilə paralellik təşkil edir. Artıq hər kəs bilir ki, dağıdıcı müxalifətin "mübarizə strategiyası" təkcə hakimiyyətə qarşı deyil, eyni zamanda, dövlətə, dövlətçiliyə, xalqa, bütövlükdə, Azərbaycanın müstəqilliyinə, varlığına və haqlı mücadiləsinə qarşı yönəlib. Əbəs yerə deyil ki, düşərgə "liderləri" zaman-zaman ermənilərə "qardaş" deyənləri daim müdafiə ediblər. Çünki belələrinin damarlarında illərlə xəyanət qanı axıb. Ona görə də, Azərbaycanda fəaliyyət göstərən müxalif partiyalar ancaq ağı qara görmək, uğurlara kölgə salmaq, vətəni qrantlara satmaqla məşğuldurlar. Daha doğrusu, həmin bu dağıdıcı müxalifət partiyaları bəzi xarici dairələrin "zombi"ləşmiş "filial"ı kimi fəaliyyət göstərməsi zaman-zaman faktlarla öz təsdiqini tapmışdır. Ancaq tarix unudulmur, geri qaytarmaq, nə də onu silmək mümkün deyil. Çünki Azərbaycanda xaos yaratmağa çalışan dağıdıcı müxalifət partiyalarının "lider"ləri öz antimilli əməllərini gizlətməyə çalışsalar da, inkaredilməz faktlar başqa söz deyir. Çünki belə əlaqsız və mənəviyyatsız erməni çörəyi yeyənlər üçün xəyanət etmək ən adi bir məsələdir. Özlərini nə qədər "demokratiya carçısı" göstərməyə çalışsalar da, xalqı aldatmaq mümkün deyildir. Belə ki, Azərbaycanda fəaliyyət göstərən 52 siyasi partiyadan 50-sinin Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair birgə bəyanata Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası milli həmrəylik nümayiş etdirə bilməməklə bir daha öz xislətlərini nümayiş etdirdilər, Vətənimizin bu ağır günündə, torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi üçün şanlı ordumuzun uğurlu əks-hücum əməliyyatlarına digər siyasi partiyalarla birlikdə dəstək vermədilər. Doğrudan da, düşməni başqa yerdə axtarmaq lazım deyil. Təəccüblü deyil... Çünki satqın və istifadə olunanların anladıqları budur. Belə bir deyim var: "xəyanət ölümdən betər bir şeydir və bunu sadəcə anlamaq lazımdır". Lakin bu əxlaqsız və mənəviyyatsız erməni çörəyi yeyənlər üçün xəyanət etmək ən adi bir məsələdir. Belə olan halda...

Amma təəssüf ki, geriyə çevrilməkdən qorxurlar. Qorxurlar ki, 1992-93-cü illərdə xalqa etdikləri zülm, yaratdıqları vətəndaş müharibəsi, xalqın əmlakını talan etmə faktları və digər günahları onların gözünə görünə bilər. Qorxurlar ki, 1992-1993-cü illərdə Azərbaycan prezidenti olmuş Əbülfəz Elçibəyin həqiqətləri üzə çıxar, ancaq anlamırlar ki, bu faktlar çoxdan üzdədir: "Rüşvət alanda milyonlarla dollar alırsınız. Alırsan, heç olmasa yüz minlərlə al, beş manat al, insafla al. Deyirlər, 200 min dollar verməlisən, yoxsa səni gömrükdən buraxmayacam, çünki sən 400 min dollar qazanacaqsan. Gəl qazancı yarı bölək...". Və bu gün sosial şəbəkələrdə dövlətin ünvanına özlərinə layiq olduqlarını deyən Vətənini, torpağını satan-satılan AXCP sədri Əli Kərimli, "Milli Şura" deyilən satqınlar yuvasına sədrlik edən, saçına, başına hörmət



etməyən Cəmil Həsənli həyasızcasına AXC-Müsavatla bağlı dövlət başçısının dediyi real faktları özlərinə sərf edən formada "təhlil" edərək bu günkü uğurlara kölgə salmağa çalışmaları həyasızlığın lap 100 faizidir. Məşhur fransız ədibi Viktor Hüqo dediyi kimi: "Vətənini rüsvay etmək - ona xəyanət etmək deməkdir".

Ancaq bu satqın və şərəfsizlər bilməlidir ki, bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil, kimliyindən, tutduğu vəzifədən asılı olmayaraq hər kəs törətdiyi əməllərin cəzasının qanun çərçivəsində almalıdır və alacaq da! Çünki ...

### Prezident: "Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olarkən dövlət başçımız bildirib ki, AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqlarımızı satıblar: "Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada - Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

### "Onları tanımayanlar, əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr, Paşinyana baxsınlar"

Prezident İlham Əliyev bütün çıxışlarında, müsahibələrində, xalqa müraciətlərində, azad olunmuş torpaqlara tarixi səfərlərində dönə-dönə söyləyib ki, onları tanımayanlar, əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr Paşinyana baxsınlar: "Öz laxlamış hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsi başlamışdılar. Öz əsgərlərini əsir götürmüşdülər. Gəncəni bombalamışdılar. Bunu heç kim unutmasın! Bilməyənlər bilsinlər və gənc nəsil bunu bilsin, kim bizi bu bəlaya saldı? Kim bu bəlanın səbəbkarıdır? Kim bir milyon insanın ağır vəziyyətə düşməsinin səbəbkarıdır? O vaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti. Əslində, indi paralel aparsaq, onların obrazı elə bil kollektiv Paşinyandır - savadsız, biliksiz, iradəsiz, qorxaq, fərari, idarəetmədə heç bir təcrübəsi olmayan, xarici dairələrin təsiri altında olan, onların əli ilə idarə olunan və öz ölkəsini məhv edən. Bax, kollektiv Paşinyandır onlar. Onları tanımayanlar, əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr, Paşinyana baxsınlar. Onun addımlarına baxsınlar və onun simasında o vaxtkı Azərbaycan Xalq Cəbhəsinin və ölkə rəhbərliyinin simasını görəcəklər".

Tarix, fakt, reallıq, günümüzün mənzərəsi isə budur ki, Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə Azərbaycanın qızıl hərflərlə ən şanlı tarixi yazıldı. Bu tariximizin yazılmasında Prezident İlham Əliyevin qeyd etdiyi kimi, yumruq kimi milli birliyimizin mühüm rolu oldu. Bu birlikdə hamımız olduq. Amma bu BİRLİKDƏ yeri və rolu olmayanlar da oldu. Bu milli birlikdə özünü görə bilməyən şərəfsizlər Qarabağın azadlığının əleyhinə çıxdılar. Bunu açıq demədilər, yeqin ki, deyə bilmədilər. Çünki Soros Fondu ölkəmizdəki quyruqbulayanların Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Leyla Yunus, Vidadi İskəndərli və... bu kimi məfhumlara himayadarlıq edirdi və Vətən müharibəsinin elə ilk günlərindən milli mənafeyimizə qarşı çıxdılar. Özlərinin "Milli Şura" adlandırdıqları milli şüursuzların başqanı Cəmil Həsənli, xaç atası AXCP sədri, onun baş ideoloqu və tribunu Qənimez Zahid, şəhid atasının erməni qatillərinə xidməti özünə şərəf sayan, dünənə qədər Əli Kərimlinin mətbuat katibi Sevinc Osmanqızı, "Yurd" sədrinin "primadonnası" bu gün heç kim olan Gültəkin Hacıbəyli, vaxtilə AMİP-in cırılan şinelinin altından çıxan Əli Əliyev və bu kimi barmaqla sayılacaq ünsürlər Azərbaycana qarşı ikinci cəbhə açdılar. İnsan nə qədər manqurtlaşmalıdır ki, Şuşanın, Ağdamın, Kəlbəcərin, Laçının, Zəngilanın, Qubadlının, Füzulinin bugünki mənzərəsinə baxarkən dərisinin altına isti keçməsin. Necə ola bilər ki, bu insan adında olan varlıqlar islam adına nə varsa təhqir olunmuş torpaqlarımızda bu gün azan səsinin ucalmasını qəbul edə bilmirlər? Bu, o Sorosdur ki, Ukrayna üçün itirilmiş Donbas və Luqanskdır, Krımın Kiyevə surprizidir, insanların bir-birinin ətini yediyi bugünkü Yerevandır, inqilablar ocağına çevirmiş Qırğızıstandır, Türkiyəni içəridən dağıtmağa məqsədlənmiş FETO-dur və nəhayət, Soros bu gün Qarabağın azadlığına ağlayan, ərazi bütövlüyümüzün bərpasını qara bayraqla qarşılayan "Milli Şura"dır.

Ancaq Güclü və diplomatik siyasət sahibi olan Azərbaycanın Qalib Lideri Prezident İlham Əliyev ətrafında xalq-iqtidar olaraq bir yumruq kimi birləşərək erməni işğalçılarını bu torpaqdan silib atdı. Azərbaycan indi daha rahat nəfəs almağa başlayıb, tarix diqtə edir.

Ancaq bu gün yolumuzun üzərində hələ də Sorosun tör-töküntüləri, çör-çöpləri var. Bu çör-çöplər əli kərimlilər, əli əliyevlər, cəmillər, sevinclər, qənimətlərdir. Artıq xalq, dövlət, millət naminə tarixin zibil yeşiyinə atılanların müqəddəs qanunlarımız qarşısında cavab vermələrinin zamanıdır.

*Rəfiqə HÜSEYNOVA*



RƏFİQƏ

# Tifaqı olmayan "yanların" güclü dövlətə qulluq edən çaqqalları...

Doğrusu, hər dəfə işğaldan azad olunmuş torpaqlarımızın görüntülərini görəndə, o vəhşi, quldur goreşənlərin, çaqqalların, 5 qramdan sonra donuz kimi çamurda eşələnən Paşinyanlar kimi üzütüpürcəkli dabanyalayanların bütün dünyanın həsəd apardığı Azərbaycanın o zəngin torpaqlarını, abidələrini, qəbirlərini faşist kimi dağıdıb, sonra da "Bəyəm Şuşa ermənilərə lazım idi?" deməklərini gördükdə içimdən elə bir ağrılar keçir ki... Sonra da həyasızcasına onun, bunun qabağında əyilərək yalamağa ayaq belə tapa bilməyən faşistxislətli, işğalçı olduğunu özü öz dili ilə deməsi bir daha "erməni" deyilən xalqa xəstə, əxlaqsız, küçə qulduru Paşinyanın başçılıq etməsi, heç də təəccüb doğurmur. Çünki bu bədbəxt ermənilərin adına heç vaxt "ağıllı-başlı" "rəhbər" qismət olmayıb. Bəli, dövlət başçımızın hər sözündən insan olan hər bir kəs əriyib muma dönərdi, ancaq bu cəllad, mənəviyyatsız çaqqal Paşinyanlara dəfələrlə dərs verib və çatdırıb ki, Ermənistana cəllad, alçaq mənəviyyatsız, vandallar, barbarlar rəhbərlik ediblər: "Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməlidir, bərpa olunmalıdır, onların öz siması qaytarılmalıdır...Ermənilər bizim 60-dan çox məscidi məhv ediblər... Ağdam məscidində donuz, inək saxlayırdılar. Bu yaxınlarda hansısa erməni jurnalist tərəfindən internetdə dərc edilən foto bütün Azərbaycan xalqını bir daha hiddətləndirdi. O fotoda Azərbaycan xalqının cəlladı, Ermənistanın keçmiş prezidenti Koçaryan zəbt edilmiş, işğal olunmuş Ağdam şəhərində bizim məscidimizin önündə öz əlaltıları, quldurları ilə dayanıb. Ağdam məscidinin üzərində isə təhqiredici yazılar görünür. Görün, kim rəhbərlik edib Ermənistana, hansı cəllad, hansı alçaq mənəviyyat sahibi?! Şəhəri dağıdıblar, məscidimizi təhqir ediblər. Məscidimizə inək, donuz doldurublar, məscidin divarlarına isə dinimiz haqqında, xalqımız haqqında təhqiramiz ifadələr yazıblar. Məscidi təhqir edən, məscidin üzərində təhqiramiz rəsmlər çəkdirən, sözlər yazan Koçaryan budur. Onun əlaltısı və quyruğu Sarkisyan, onlar dağıdıblar bizim şəhərlərimizi iyirmi il ərzində. Bizim şəhərlərimiz müharibə dövründə dağıdılmayıb. Müharibə dövründə şəhərləri belə dağıtmaq mümkün deyil. Müharibədən sonra işğal dövründə bütün binaları, bütün yaşayış yerlərini söküblər. Onlar vandallardır, barbarlardır. Amma iyirmi il Ermənistana rəhbərlik ediblər".

### Bədbəxt xalq hələ də bədbəxtçiliyin, rəzilliyin nə olduğunu anlamır...

Çünki Paşinyan kimi həyasız çaqqallar deyir ki, "Şuşanı son 30 il ərzində satmışıq. Ona görə ki, Şuşa bədbəxt, boz şəhər idi". Ay çaqqallar, boz gündə sizsiniz və olmayan tifaqınız elə dağılıb ki... Bax, bundan böyük həyasızlıq olmaz. Bədbəxt xalq hələ də bədbəxtçiliyin, rəzilliyin nə olduğunu anlamırlar. Anlamırlar ki, murdar donuz kimi yerdə eşələnən, küçədə ağzının suyunu axıda-axıda qışqıran, ağzı qulağının dibinə çatan rəzildən ancaq belə danışmağı gözləmək olar. Bir də Paşinyan kimi murdar çaqqalların Qarabağımızın tacı olan, nəinki Şuşada olmağı, hətta Şuşanın adını ağzına almağı belə cinayətdir. Bəli, cinayətdir! Ona görə də, təkcə Paşinyan yox, həm də erməni xalqı da bədbəxt və rəzildirlər ki, bu gün özlərini elə bir quyuya salıblar ki, ordan çıxa bilmirlər. Bu yerdə dünyanın tanınmış simalarının Paşinyan kimi erməni abırsızlığı, riyakarlığı və namərdliyi barədə aforizmlərə diqqət yetirmək kifayətdir ki, bu "yan"lar nə xalq kimi xalq olublar, nə də dövlət kimi dövlət.

Məsələn, proletariatın rəhbərlərindən olan F.Engels deyib: "Öz arvadlarını yaşamaq və qazanc xatirinə başqa xalqların kişilərinə satan ilk millət erməni milləti olmuşdur". Gürcü yazıçısı SERQİ SACAYA: "Ermənilər şir deyil, güclü dövlətlərə qulluq göstərən çaqqallardır".

Amerika tarixçiləri CASTİN VƏ KEROLİN MAKKARTNİLƏR: "Ermənistanın müasir ərazisi ermənilərə deyil, azərbaycanlılara mənsubdur. Məhz buna görə Ermənistan ərazisində coğrafi adların böyük hissəsi azərbaycanlılara aiddir".

Erməni tarixinin "atası" sayılan MOVSES XORENASİ erməniləri dördayaqlı heyvan adlandırıb. Bəli, dördayaqlı heyvanlardır, bu "yanlar". Və bu gün Paşinyan kimilərin elə döyüş meydanında hərbi qənimət kimi texnikaların içindən çıxan başsız erməni papaqları bir daha sübut etdi ki, bu xalq həqiqətən də nə papaq taxmağa "başları", nə də "başı papaqlı" olmağa nə adət ediblər, nə də layiq deyillər. Onların layiq olduğu bir şey var: başqa xalqların əsarətində boynu zəncirli və qulağı sırğalı qul kimi və gündəlik ruziləri üçün onun-bunun dabanını yalamaq. Çünki sərbəst qalan kimi quduz köpək kimi hər tərəfə hürürlər. Başqa cür də ola bilməz. Çünki tifaqı olmayan dağılmış "yanlar" güclü dövlətə qulluq edən dünyada ən ləyaqətsiz xalq kimi tarixə düşən çaqqal, gorbagör xalqdır.

# İtirilən milyardları yenidən qazanmaq olar

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

**Ekspertlər: "Üzümçülük aqrar sektorda 1 nömrəli gəlirli sahədir və bu sahədən neftdən də çox gəlir əldə edə bilərik"**

***Azərbaycan iqtisadiyyatının diversifikasiya məsələsi uzun müddətdir ki, hökumətin elan etdiyi əsas prioritetdir. Azərbaycan Prezidenti İlham Əliyev hələ neftin ucuzlaşmağa başlamasından bir neçə il əvvəl- 2013-cü ildə hökumətin iclaslarının birində diversifikasiya məsələsinə toxunaraq demişdi: "İqtisadiyyatın şaxələndirilməsi məsələsi, qeyri-neft sektorunun inkişafı bizim üçün iqtisadi sahədə əsas prioritetdir". Bundan sonra qeyri-neft sektorunun, xüsusilə də aqrar sektorun inkişafı üçün işlər daha da sürətləndi, bu sahəyə dövlət investisiyası artırıldı və stimullaşdırıcı tədbirlər daha da geniş vüsət aldı.***

Ümumiyyətlə, son illərdə neft sektorundan əldə edilən gəlirlərin qeyri-neft sektoruna investisiya edilməsi yolu ilə həmin sahələrin inkişafına nail olmaq üçün müxtəlif dövlət proqramları hazırlanıb həyata keçirilir. Belə sahələrdən biri də böyük ənənələri olan və yüksək gəlir vəd edən üzümçülük sektoru və şərabçılıq sənayesidir.

### Üzümçülük niyə və necə məhv edildi?

Ötən əsrin 80-ci illərində respublikada artıq 220 min hektar sahədə üzümlüklər salınmışdı və ordan əldə edilən məhsul Azərbaycanın və Sovet İttifaqının böyük bir hissəsinin üzümə və şəraba tələbatını təmin etməyə imkan verirdi. Üstəlik, Azərbaycan şərabı və konyakı bir çox xarici ölkələrin bazarına da çıxırdı.

Azərbaycanda üzümlüklərin qırılmasından azacıq əvvəl 1984-cü ildə respublikada rekord həcmdə- 2 milyon tondan çox üzüm yığılmışdı və hər hektardan məhsuldarlıq 100 sentner olmuşdu. Həmin illərdə ölkədə 100-110 mln. dekalitr çaxır materialı, 10,4 mln. dekalitr şərab, 1,4 mln dekalitr konyak şərabı, 1,5 milyon dekalitr şampan şərabı istehsal edilmişdi. Respublikada ümumi gücü 1,8 milyon ton olan 181 şərab zavodu işləyirdi.

Lakin Sovet İttifaqının sonuncu rəhbəri M.Qorbaçovun alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri haqqında 1985-ci ildə qəbul etdiyi qərardan sonra Azərbaycanda 130 min hektardan çox məhsuldar üzüm bağı məhv edildi.

İttifaq dağıldıqdan sonra isə kənd təsərüfatının ənənəvi və gəlir verən, çoxillik bitkilər əkilmiş, bağlar salınmış torpaq sahələri ləğv edilmiş kolxoz və sovxozlardan kəndlilərə bölündü. Ağır sosial vəziyyətə düşmüş kənd əhalisi üzümlükləri sürətlə qırıb-dağıtdı və yerində birillik bitkilər əkməyə başladı. Halbuki, birillik bitkilər isə hər il böyük xərclər və əziyyət tələb edir. Üstəlik, gəlirliliyi üzümə nisbətən dəfələrlə aşağıdır. Üzümlüklərin məhvi nəticəsində şərab zavodlarının çoxu da fəaliyyətini dayandırmağa məcbur oldu.

İndi üzümlükləri bərpa etmək üçün ağır zəhmət və böyük vəsaitlər tələb olunur. Son illərdə yenidən üzüm bağları salınır və şərabçılıq da inkişaf edir. Azərbaycan üzümünün dünyada ən yüksək dəyərliliyə malik olmasını nəzərə alsaq, dünya bazarında yüksək qiymətə konyak və şərab məhsulları ilə çıxa bilərik.

### Mütəxəssis: "Üzümçülükdən xeyli gəlir əldə etmək olar"

Üzümçülük rayonlarında birində vaxtilə aqronom işləmiş Valeh Hüseynov deyir ki üzümçülük dünyada hektardan götürülən gəlirə görə 1-ci yeri tutur: "Üzüm bağları bir dəfə salınır və azı 80 il məhsul verir. Düzgün arqotexniki qulluq edildikdə, hər hektardan 100 sentner məhsul yığmaq olur. Digər əkin sahələri ilə müqayisədə üzüm sahələrindən dəfələrlə çox qazanc götürülür".

Mütəxəssisin fikrincə, üzümçülük xüsusi elmi yanaşma tələb edən sahə olduğundan bu sektorun inkişafı üçün fərdi qaydada məşğul olmaq effekt vermir. Hazırda ölkəmizdə üzüm sahələrinin hər hektarından təxminən 100 sentner məhsul əldə edildiyini deyən mütəxəssisin fikrincə, bu həddən çox aşağı göstəricidir. Onun sözlərinə görə, əgər yeni texnologiyalardan istifadə olunarsa və aqro-texniki qaydalara riayət edilərsə, məhsuldarlığı yüksək səviyyəyə qaldırmaq mümkün olar. Yəni, hektardan azı 50 ton üzüm əldə etmək mümkündür.

Aqronom Azərbaycanda üzümçülük və şərabçılıq üzrə mütəxəssislərin hazırlanmasının vacibliyini vurğulayır. Onun sözlərinə görə, bu üzümçülük məhsullarının ixracından ölkəyə xeyli valyuta cəlb etmək olar: "Keçən əsrin 80-ci illərində respublikadan kənara 230-240 min ton süfrə üzümü ixrac edilirdi. Hazırda bu qədər ixracımız olsa milyardlarla gəlir əldə edərdik. Üzümdən şərab, üzüm şirəsi, bəhməz, kişmiş, mürəbbələr və sair məhsullar istehsalı təşkil etmək olar. Üzüm bağlarını və istehsalı artırmaq, xarici bazara da keyfiyyətli məhsul çıxarmaq üçün böyük imkanlar var. Bunu etməklə respublikaya xeyli gəlir gətirmək mümkündür".



### "Hər il bu sahədən milyardlarla gəlir itirilir"

SSRİ texniki elmlər namizədi, şərabçılıq üzrə mütəxəssis Gülağa Ağazadənin sözlərinə görə, üzümçülük sektoru dağıdılmasaydı indi, ondan götürdüyümüz gəlir bəlkə də neftdən əldə etdiyimiz gəlirlərdən çox olardı.

Mütəxəssis deyir ki, vaxtilə iqtisadiyyatımızda dövlət büdcəsinin 40 faizini verən bir sahə indi iflasa uğrayıb: "Dünyada ən keyfiyyətli və məhsuldar üzüm sortları Azərbaycanda yetişir. Amma biz bu məhsulu layiqli şəkildə dünya bazarına çıxara bilmirik. Üzümçülüyün inkişaf etdirilməsi hesabına Fransa, İspaniya, İtaliya, Portuqaliya, Argentina və bir çox başqa dövlətlərdə şərabçılıqdan külli miqdarda gəlir əldə edilir. Dünya bazarında Fransa, İtaliya konyak və şərabları şüşəsi minlərlə dollar qiymətinə satılır və həmin ölkələr bu sektordan milyardlarla gəlir götürürlər.

Belə şirkətlər Azərbaycanda da var. Onlardan bəzilərinin şərab və konyakları dünya bazarında bir neçə yüzdən bir neçə min dollara qədər qiymətdə satılır. Lakin təəssüf ki, belə bir böyük potensiallı sahədən respublika səviyyəsində səmərəli istifadə edilmir və hər il milyardlarla gəlir itirilir".

Daxili bazardakı yerli və xarici məhsulların çeşidi ilə bağlı məsələyə gəldikdə ekspert yerli məhsulların üstünlük təşkil etdiyini, xaricdən daha çox bizdə istehsal olunmayan likor, viski və digər bir sıra içkilərin gətirildiyini bildirib: "Lakin əminliklə söyləmək olar ki, bəzi şərab və araq məhsullarına görə yerli istehsalda keyfiyyət səviyyəsi çox aşağıdır ki, onlar da yalnız qiymətinin ucuzluğuna görə bazarda özlərinə yer edə biliblər. Bu gün zəngin şərabçılıq ənənələrinə malik Azərbaycanda bir neçə marka istisna olmaqla, əksər şərabçılıq məhsulları keyfiyyət tələblərinə cavab vermir".

Mütəxəssisin sözlərinə görə, son illərdə yerli brendlər tanınmağa başlayıb, lakin keyfiyyəti daha da artırmaqla ən azı keçmiş SSRİ məkanında Azərbaycan konyak və şərablarının keçmiş şöhrətini qaytarmaq olar və spirtli işkilər bazarında Azərbaycan brendlərinin daimi üstünlüyünü təmin etmək olar.

### Üzüm istehsalını yarım milyon tona çatdırmaq mümkündür

Hazırda respublikada 17 min hektardan artıq üzüm sahələri var ki, bu sahələrdən 170 min tona yaxın məhsul yığılır, məhsuldarlıq hektara 100 sentner təşkil edir. Həm sahələrin, həm də istehsalın həcmi 30 il əvvəlkinə nisbətən 15 dəfə azdır.

Kənd Təsərrügatı Nazirliyində hesab edirlər ki, bu, mövcud potensiala nisbətən xeyli aşağı rəqəmdir. Lakin yaxın gələcəkdə üzüm sahələrinin 50 min hektara, məhsul yığımının isə 500 min tona çatdırılması imkanları var. Respublikanın daxili tələbatı 200 min tondur. Nazirlikdə hesab edirlər ki, həm daxili tələbatı ödəmək, həm də ölkədən kənara məhsul ixrac etmək üçün təxminən 400 min ton məhsul kifayət edər.

Qeyd edək ki, 2002-ci ildə prezident Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis tərəfindən "Üzümçülük və şərabçılıq haqqında" Qanun qəbul olunub. 2011-ci ilin dekabrında prezident İlham Əliyev "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nı təsdiq edib.

Bu Dövlət Proqramı ölkədə üzümçülüyün və şərabçılıq sənayesinin inkişaf etdirilməsi, aqrar sahənin gəlirliliyinin və ixracat potensialının artırılması, kənd əhalisinin maddi rifahının yüksəldilməsi məqsədi daşıyırdı. Proqramın davam etdirilməsi və ya yeni dövlət proqramının qəbul edilməsi ilə bu sahədə daha çox işlər görmək olar, beləliklə də Azərbaycanda üzümçülük və şərabçılıq sənayesi yaxın vaxtda öz keçmiş şöhrətini qaytara bilər və ölkə iqtisadiyyatının diversifikasiyasında ən mühüm sahələrdən biri kimi öz yerini tutar.

Üzümçülük həm aqrar, həm sənaye sahəsidir, özü də yüksək gəlirlilikli bir sahə. Azərbaycanın isə sırf bu sahə üzrə çox böyük potensialı və bu sahənin inkişafı üçün çox gözəl perspektivi var. Qalır bu potensialdan effektiv istifadə etmək. Bununla yüz minlərlə insanı iş yeri ilə təmin etmək, ölkəyə xeyli məhsul və gəlir vermək olar. Ümid edirik ki, Kənd Təsərrüfatı Nazirliyi bu sahədə effektiv işlər həyata keçirəcək.

***Elçin Bayramlı***

ARAŞDIRMA

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

23 fevral


## Ronaldo bu dəfə də Messini geridə qoydu!



Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası əsrin ən çox oyun keçirən futbolçularının siyahısı açıqlayıb. Qurumun rəsmi saytında yer alan məlumatda deyilir ki, 2001-20-ci illərdə milli və klub səviyyəsində ən çox matça çıxanların sıralamasına Kriştiano Ronaldo başçılıq edir. O, liqada 595, kubokda 91, beynəlxalq kuboklarda 191, Portuqaliya millisində 170 oyunda şans qazanıb. Ronaldo ümumilikdə 1047 oyun keçirib.

## Tüfənglə həmkəndlisini öldürən şəxs tutulub



Yevlax rayonunda münaqişə zəminində tüfəngdən atəş açaraq həmkəndlisini qətlə yetirən şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayonun Qaraoğlan kəndi ərazisində Xəyal Səfərovun odlu silahla qətlə yetirilməsi barədə rayon polis şöbəsinə məlumat daxil olub.

Dərhal rayonun polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib. İstintaq-əməliyyat tədbirləri ilə bu cinayət əməlini kənd sakini Q.Həsənəliyevin münaqişə zəminində tüfəngdən açdığı atəşlə törətməsi müəyyən edilib.Əməliyyat-axtarış tədbirləri nəticəsində Q.Həsənəliyev tutulub. Ondan cinayəti törədərkən istifadə etdiyi müvafiq sənədləri olan “TOZ-16” markalı ov tüfəngi götürülüb. Faktla bag?lı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət is?i bas?lanıb.

## Həyəcanı və depressiyanı aradan qaldıran çay

Həyəcanlılıq və depressiya milyonlarla insana əzab verən psixi sağlamlığın ən çox yayılmış problemlərindən hesab olunur. Alimlərin fikrincə, rozmarinlə dəmlənmiş çay bu cəhətdən daha faydalı ola bilər. Bəzi tədqiqatçılar rozmarinlə dəmlənmiş çayı içmək və ya bu bitkinin komponentlərini buruna çəkməyin əhval-ruhiyyəni yüksəltdiyi və yaddaşı möhkəmləndirdiyi qənaətindədirlər. Tədqiqat işinin nəticələri barədə “Journal of the American College of Nutrition” jurnalında dərc olunmuş materialda rozmarinli çayın həyəcan və depressiya kimi problemlərə qarşı mübarizədə faydalı olması vurğulanır.



“MedikForum” saytında yer alan məlumatda deyilir ki, rozmarinlə dəmlənmiş çay, psixi pozuntular zamanı antidepressiv və sakitləşdirici təsir göstərir.

“Complementary Therapies in Clinical Practices” jurnalının dərc etdiyi digər bir materialda bildirilir ki, 500 milliqram rozmarinin bir ay müddətində gündə iki dəfə qəbul edilməsi həyəcanı azaldır, yaddaşı möhkəmləndirir və yuxunun keyfiyyətini yüksəldir. Rozmarin sağlamlıq üçün faydalı xüsusiyyətlərə malikdir.

Rozmarinli çayın tərkibində infeksiyadan qoruyan anti-iltihab və anti-mikrob antioksidanlar var. Bu çay qanda şəkərin səviyyəsini tənzimləyir, beyini qocalmaqdan, neyrodegenerativ xəstəliklərdən , gözləri isə yaşla bağlı olan sarı ləkənin degenerasiyası kimi xəstəliklərdən qoruyur. Rozmarinli çay bağırsaqların sağlam qalmasına imkan yaradır, iltihabı azaldır, həzmi gücləndirir, həm də ürək-damar xəstəlikləri riskini azaldır.

## Cüdoçumuz Davud Məmmədsoy reytinq cədvəlində 18 pillə irəliləyib



Beynəlxalq Cüdo Federasiyası (İJF) yeni reytinq siyahısını açıqlayıb. Belə ki, İsrailin paytaxtı Təl-Əvivdə keçirilmiş “Böyük dəbilqə” turnirində 60 kiloqram çəki dərəcəsində qızıl medal qazanan Davud Məmmədsoy 18 pillə irəliləyərək 32-ci yerdə qərarlaşıb (1800 xal).

Cüdoçularımızdan ikisi ikinci pillədədir. Belə ki, kişilər arasında Rüstəm Orucov (73 kq, 6575 xal) və qadınların reytinqində İrina Kindzerska (78 kiloqramdan yuxarı, 2564 xal) ikinci yeri tuturlar. İki cüdoçumuz - Məmmədəli Mehdiyev (90 kq, 4309 xal) və Zelim Kotsoyev (100 kq, 4447 xal) isə 10-cu pillədədirlər. Digər cüdoçularımız Kəramət Hüseynov (60 kq, 1222 xal) 41-ci, Orxan Səfərov (2794 xal) 19-cu, Nicat Şıxəlizadə (hər ikisi 66 kq, 2582 xal) 24-cü, Hidayət Heydərov (73 kq, 3346 xal) 14-cü, Elmar Qasımov (100 kq, 4100 xal) 11-ci və Uşangi Kokauri (100 kiloqramdan yuxarı, 2518 xal) 22-ci yerdədirlər.

Qadın cüdoçularımızdan Aişə Qurbanlı (48 kq, 1753 xal) 26-cı, Leyla Əliyeva (hər ikisi 48 kq, 1670 xal) 31-ci, Gültac Məmmədəliyeva (52 kq, 1310 xal) 38-ci yerdədirlər.

## Qusarda ikimərtəbəli ev yanıb



Qusar rayonunun Hil kəndində ikimərtəbəli evdə yanğın baş verib. Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ümumi sahəsi 288 kvadratmetr olan səkkizotaqlı ev hadisə nəticəsində yanıb. Yaxınlıqdakı tikililər yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

## 20 yaşlı ingilis futbolçu Bundesliqanın tarixinə düşdü

Dortmund “Borussiya”sının yarımmüdafiəçisi Ceydon Sanço Almaniya Bundesliqasının tarixinə düşüb. SİA xəbər verir ki, o, ölkə çempionatında 35 qol həddinə çatan ən gənc futbolçuya çevrilib. 20 yaşlı ingilis futbolçu son olaraq Bundesliqanın 22-ci turu çərçivəsində ötən gün səfərdə qarşılaşdıqları “Şalke”yə qol vurub.

Bu, onun Bundesliqadakı 35-ci qolu olub. İngiltərə millisinin üzvü Almaniya çempionatında bu qədər qol vurmağı bacaran ən gənc futbolçudur (20 yaş, 10 ay, 26 gün). Ceydon Sanço 2017-ci ildən “Borussiya”da forma geyinir. O, indiyə qədər bu komandanın heyətində bütün turnirlər daxil olmaqla 128 matça çıxıb, 44 qola imza atıb, 59 məhsuldar ötürmə müəllifi olub. Yarımmüdafiəçi bu mövsüm Bundesliqada 20 matça 5 qol vurub.





**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**